COUNCIL OF EUROPE

CONSEIL DE L'EUROPE

GRETA(2018)26_AZE

# G R E T A

İnsan Alverinə qarşı Mübarizə üzrə
Ekspertlər Qrupu

# Avropa Şurasının İnsan Alveri ilə Mübarizə haqqında Konvensiyasının İştirakçı Ölkələr tərəfindən icrasının qiymətləndirilməsi üzrə Sorğu vərəqəsi

## Üçüncü qiymətləndirmə raundu

### Tematik məqsəd: İnsan alverinin qurbanları üçün ədalətli və effektiv tədbirlərin görülməsi

**Cavablar Trafficking@coe.int ünvanına göndərilməlidir.**

Avropa Şurasının İnsan Alverinə qarşı Mübarizə
Konvensiyası üzrə Katiblik
(GRETA və İştirakçı Ölkələr Komitəsi)
Avropa Şurası
F-67075 Strasburq Cedex
Fransa

trafficking@coe.int

www.coe.int/en/web/anti-human-trafficking

Dekabr 2018

## Giriş

İnsan Alverinə qarşı Mübarizə haqqında Konvensiyanın ("Konvensiya") 1-ci Fəslinin 38-ci Maddəsinə əsasən, GRETA mərhələlərə bölünmüş prosedurun ardından Konvensiyanın icrasını qiymətləndirir. Hər mərhələnin başlanğıcında GRETA, qiymətləndirmə prosedurunun əsaslandığı səciyyəvi müddəaları seçir.

Konvensiyanın monitorinqinin ilk mərhələsində onun İştirakçı Ölkələr tərəfindən icrası müşahidə edilir. Konvensiyanın ikinci qiymətləndirmə mərhələsində insan alverinin qarşısının alınması üzrə qanunvericilik, siyasi və praktik tədbirlərin təsiri, insan alveri qurbanlarının hüquqlarının qorunması və insan alverçilərinin cəzalandırılması qiymətləndirilir və bu zaman insane alveri üzrə yeni təmayüllərin qarşısının alınmasına və uşaqların insane alverinə qarşı həssaslığına xüsusi diqqət yetirilir.

GRETA qərara alıb ki, Konvensiyanın üçüncü qiymətləndirmə mərhələsi, insan alveri qurbanlarının reabilitasiyası və hüquqlarının bərpası üçün zəruri olan və insan alveri ilə mübarizəyə qurban nöqteyi-nəzərindən və insan hüquqları baxımından yanaşmanı əks etdirən **ədalətli və effektiv tədbirlərdən** insan alveri qurbanlarının yararlanması imkanına yönəlir. Bu mövzuda Konvensiyanın müstəqil və prosessual öhdəliklər qoyan bir çox müddəaları mühüm əhəmiyyət kəsb edir. Bundan əlavə, insan hüquqlarının pozulmasının qurbanları statusuna malik olan insan alveri qurbanları İnsan Hüquqları üzrə Avropa Konvensiyası əsasında, cins və yaş xüsusiyyətləri nəzərə alınmaqla, öz mühacirət statusundan və ya milli ərazidə olub-olmamasından, eləcə də hər hansı cinayət təhqiqatında əməkdaşlıq etmək qabiliyyətindən və ya istəyindən asılı olmayaraq, effektiv tədbirlərdən yararlanmaq səlahiyyətinə malikdir.

Ədalətli və effektiv tədbirlərdən yararlanmaq imkanı bir çox ilkin şərtlərin yerinə yetirilməsindən, o cümlədən insan alveri qurbanlarının operativ və dəqiq şəkildə müəyyən olunmasından, onların bərpası və fikir bildirməsi üçün vaxt verilməsindən, eləcə də maddi, psixoloji, tibbi və hüquqi yardım göstərilməsindən, sığınacaq axtarmaq və istifadə etmək hüququndan və olduğui yerdən didərgin salmama prinsipinin tətbiqindən asılıdır. Konvensiyanın müxtəlif müddəalarına müvafiq olan bu ilkin şərtlər Konvensiyanın monitorinqinin birinci və ikinci qiymətləndirmə mərhələləri ərzində ətraflı şəkildə yoxlanılıb. Beləliklə, GRETA üçüncü qiymətləndirmə mərhələsi üçün ümumi sorğu vərəqəsində eyni müddəalarla əlaqədar sualları bir daha daxil etmək əvəzinə, sorğu vərəqəsinin ayrıca ölkə səciyyəli hissəsində, seçilmiş mövzularla əlaqədar özünün ilkin tövsiyyələrinin icrasını yeniləməyi hər bir İştirakçı Dövlətdən xahiş etməyi qərara alıb.

Hazırki sorğu vərəqəsinin göndərildiyi tarixdən sonrakı **4 ay ərzində** sorğu vərəqəsini cavablandıraraq onu GRETA-ua ötürmək İştirakçı Dövlətlərdən xahiş olunub. Sorğu vərəqəsinin cavabları Avropa Şurasının rəsmi dillərindən birində (fransız və ya ingilis dilində) və imkan daxilində, orijinal dildə göndərilməlidir. Zəruri hallarda, lazımsız təkrarlara yol verməmək məqsədi ilə sorğu vərəqəsindəki cavablarda, GRETA-nın ikinci qiymətləndirmə hesabatında irəli sürülən təkliflərin icrası ilə bağlı İştirakçı Dövlətlərin Komitəsinin tövsiyyələrini yerinə yetirmək məqsədi ilə görülən tədbirlərlə əlaqədar yerli orqanların təqdim etdiyi hesabatda əks olunan məlumatlara istinad edilə bilər. İştirakçı Dövlətlər sorğu vərəqəsinin cavablandırılması zamanı qeyd olunan müvafiq qanunvericilikdən, nizamnamələrdən, milli fəaliyyət planlarından və presedent hüquqdan çıxarışlar, linklər, surətlər təqdim edə bilər – təqdim olunan mənbələr orijinal dildə və imkan daxilində, Avropa Şurasının rəsmi dillərindən birində olmalıdır.

Təqdim edilən məlumatların mümkün qədər əhatəli olması məqsədi ilə müxtəlif maraqlı tərəflər və vətəndaş cəmiyyəti nümayəndələri ilə sorğu vərəqəsindəki cavabların hazırlanması ilə əlaqədar effektiv məsləhətləşmələr aparılmalıdır.

## I Hissə - Ədalətli və effektiv tədbirlərdən yararlanmaq hüququ

### 1. Məlumatlanma hüququ (12-ci və 15-ci Maddə)

**1.1 İnsan alverinin qurbanları və ehtimal olunan qurbanları öz hüquqları, müvafiq inzibati və məhkəmə prosedurları, eləcə də kompensasiya və digər müavinətlər almaq üçün hüquqi imkanlar haqqında başa düşəcəkləri dildə məlumatları necə, hansı mərhələdə və kimdən ala bilərlər? İnsan alverinin qurbanlarının məlumatlandırılması məqsədi ilə işlənib hazırlanmış hər hansı məlumatlandırıcı materialların, eləcə də, xüsusi olaraq, azyaşlı qurbanlar üçün işlənib hazırlanmış materialların onların başa düşəcəkləri dildə surətlərinin təqdim edilməsi xahiş olunur.**

**Cavab -** "İnsan alverinə qarşı mübarizə haqqında" Qanunun (bundan sonra –Qanun) 11.2.6-cı maddəsinə əsasən insan alverinin potensial qurbanları arasında maarifləndirmə və təbliğat işinin təşkil edilməsi, onların insan alveri qurbanlarını gözləyən təhlükə, dövlət tərəfindən təmin edilən müdafiə tədbirləri, insan alverinə qarşı dövlət tərəfindən həyata keçirilən inzibati, cinayət-hüquqi və digər tədbirlər barədə məlumatlandırılması insan alverinin profilaktikası üzrə tədbirlər sisteminə daxildir.

Qanunun 10.2-ci maddəsinə əsasən insan alverinin qarşısının alınması sahəsində fəaliyyət göstərən qeyri-hökumət təşkilatları insan alverinin potensial qurbanlarının maarifləndirilməsi işlərinə, onlar üçün xüsusi müəssisələrin fəaliyyətinin təşkil edilməsinə, qurbanlara hüquqi yardımın göstərilməsinə və onların sosial reabilitasiyasına cəlb edilirlər.

Qeyd olunmalıdır ki, Qanunun 13.1 və 14.1-ci maddələrinə əsasən insan alveri qurbanlarının müvəqqəti yaşaması üçün sığınacaqlar onlara layiqli yaşayış şəraitinin yaradılması, təhlükəsizliyinin təmin edilməsi, hüquqi yardımın göstərilməsi üçün, insan alveri qurbanlarına yardım mərkəzləri insan alveri qurbanlarının hüquq və mənafelərinin müdafiəsinə dair mövcud inzibati və hüquqi prosedurlar haqqında izahatlar vermək və digər zəruri yardımın göstərilməsi, sosial reabilitasiyalarına kömək məqsədilə yaradılır.

Sığınacaqlarda insan alveri qurbanlarına telefonla danışmaq və tərcüməçinin xidmətlərindən istifadə etmək imkanı yaradılır. Konfidensial söhbət aparılması üçün xüsusi yerlər ayrılır. Yardım mərkəzlərində davranışından, cinayət təqibi orqanları ilə əməkdaşlıq etmək və insan alverçilərinə qarşı ifadə vermək istəyindən asılı olmayaraq, özünü insan alverinin qurbanı kimi təqdim edən hər bir şəxsə onun xahişi ilə yardım göstərilir.

Həmçinin Qanunun 8.1-ci maddəsinə əsasən insan alveri qurbanlarının təhlükəsizliyinin təmin edilməsi, onlara peşəkar yardım göstərilməsi, insan alverinə qarşı mübarizə sahəsində məlumatların vahid mərkəzdə cəmlənməsi və qorunması, insan alverinə qarşı mübarizənin xüsusi təlim keçmiş peşəkar polis əməkdaşları və lazımi avadanlıqla təchiz edilmiş polis qurumu tərəfindən həyata keçirilməsi məqsədilə xüsusi polis qurumu yaradılır.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2009-cu il 19 noyabr tarixli 180 nömrəli qərarı ilə təsdiq edilmiş "İnsan alverinin qurbanı olmuş uşaqların sığınacaqda yerləşdirilməsi və

saxlanılması Qaydaları"nın 2-ci və 6-cı hissələrinə əsasən insan alverinin qurbanı olmuş sığınacağa yerləşdirilmiş uşağın yaşı, kamillik səviyyəsi nəzərə alınmaqla, onların vəziyyəti, hüquqları, göstəriləcək xidmətlərə dair məlumatlar uşaqların dərk edəcəyi formada verilməlidir. Sığınacaqda yerləşdirilmiş uşaqlara onların hüquq və mənafelərini müdafiə edən şəxslərlə (həmin şəxsin uşağın insan alverinin qurbanı olmasına səbəb olması güman edilən hallar istisna olmaqla) əlaqə və ünsiyyət saxlamaq imkanı yaradılır. Sığınacaqda uşaqlara telefonla danışmaq və tərcüməçinin imkanlarından istifadə etmək imkanı verilir.

Bundan başqa Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2008-ci il 1 fevral tarixli 21 nömrəli qərarı ilə təsdiq edilmiş "İnsan alveri cinayət qurbanlarının insan alverinə qarşı mübarizə üzrə xüsusi polis qurumuna təhvil verilməsi Qaydaları"nın 4-cü hissəsinə əsasən insan alveri cinayətinin qurbanlarını və ehtimal olunan qurbanları müəyyən etmiş qurumlar onlara qanunvericilikdə nəzərdə tutulmuş hüquqlarını izah etməli, təhvil veriləcəkləri qurum, həmin qurumun səlahiyyətləri, eləcə də sonrakı mümkün prosessual hərəkətlər barədə məlumat verməlidirlər. Qaydaların 6-cı və 7-ci hissələrinə əsasən şəxsin insan alverindən zərər çəkməsi ehtimal olunduqda, yaxud insan alveri cinayətinin hazırlanması və ya törədilməsi digər qurumlar tərəfindən aşkar edildikdə, insan alveri qurbanlarının təhlükəsizliyinin təmin edilməsi, onlara peşəkar yardım göstərilməsi, insan alverinə qarşı mübarizə sahəsində məlumatların vahid mərkəzdə cəmlənməsi və qorunması məqsədilə bu barədə xüsusi polis qurumuna dərhal məlumat verilməlidir. İnsan alveri cinayətinin qurbanları və ehtimal olunan qurbanları müəyyən edildikdən sonra onların müraciətləri qanunvericilikdə nəzərdə tutulmuş qaydada rəsmiləşdirilərək, 24 saatdan gec olmayaraq şəxsin xüsusi polis qurumuna təhvil verilməsi üçün təxirəsalınmaz tədbirlər görülməklə, onun müvafiq sənədləri həmin quruma təqdim edilir və lazımi köməklik göstərilir.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2009-cu il 3 sentyabr tarixli 131 nömrəli qərarı ilə təsdiq edilmiş "İnsan alveri qurbanlarının müəyyən edilməsi Qaydaları (indikatorları)"nın 6-cı hissəsində qurbanların daha asanlıqla aşkarlanması və hüquqlarının müdafiəsi üzrə təxirəsalınmaz tədbirlərin həyata keçirilməsi məqsədilə keçirilən sorğu zamanı qurbana (həmçinin əcnəbi və vətəndaşlığı olmayan şəxsə) qanunvericilikdə nəzərdə tutulmuş hüquqlarının izah edilməsi, təhvil veriləcəkləri qurum, həmin qurumun səlahiyyətləri, eləcə də sonrakı mümkün prosessual hərəkətlər barədə məlumatlar verilməsi qeyd olunur. Eyni zamanda sorğu zamanı qarşılıqlı razılaşma əsasında gələcəkdə həyata keçirilə biləcək hərəkət və tədbirlər müəyyən edilərək dəqiqləşdirilir.

Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin İnsan Alverinə qarşı Mübarizə Baş İdarəsinin koordinasiyası, dəstəyi, rəy və təklifləri əsasında ekspert Paul Holmes tərəfindən hazırlanmış "İnsan alveri qurbanları ilə bağlı Milli İstiqamətləndirmə Mexanizmi çərçivəsində Standart Fəaliyyət Prosedurları" adlı metodiki vəsaitdə insan alverindən zərər çəkən və ya zərər çəkməsi ehtimal edilən şəxslərin ilkin müəyyənləşdirilməsi və istiqamətləndirilməsi zamanı onların hüquqlarının əks olunduğu razılıq forması *(əlavə olunur)* tərtib edilmişdir ki, bu vəsaitdən dövlət qurumları tərəfindən xidməti fəaliyyətdə istifadə olunur.

Xüsusilə vurğulanmalıdır ki, insan alveri cinayətinin qurbanları cinayət işi üzrə zərər çəkmiş şəxs qismində tanındıqdan sonra onlara Azərbaycan Respublikası Cinayət-Prossesual Məcəlləsinə uyğun olaraq zərər çəkmişin hüquqlarından təsbit edildiyi bildiriş təqdim edilir *(əlavə olunur)*.

**1.2. Hüquqi və inzibati prosedurların müxtəlif mərhələlərində müxtəlif agentliklər tərəfindən insan alveri qurbanlarına zəruri şifahi və yazılı tərcümə xidmətlərinin göstərilməsinə dair hansı öhdəliklər mövcuddur?**

**Cavab -** Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsinin 26.2-ci maddəsinə əsasən cinayət prosesini həyata keçirən orqan cinayət mühakimə icraatının aparıldığı dili bilməyən cinayət prosesi iştirakçılarının ibtidai araşdırma və məhkəmə baxışı zamanı tərcüməçinin köməyindən pulsuz istifadə etmək hüququnu təmin etməlidir.

Eyni zamanda Mülki Prosessual Məcəllənin 11.2-ci maddəsinə əsasən işdə iştirak edən, məhkəmə icraatının aparıldığı dili bilməyən şəxslərə pulsuz tərcüməçi xidmətindən istifadə etmək hüququ izah və təmin olunur.

Ehtimal olunan qurbanlara 3 dildə (Azərbaycan, ingilis, rus) dərc edilmiş məlumat kitabçaları verilir. Belə kitabçalar ilkin mərhələdə ünsiyyət yaratmaq üçün yardımçı vasitədir. Eyni zamanda Azərbaycan Respublikasının qanunvericiliyinə əsasən insan alveri qurbanlarına *(zərər çəkən və ya zərər çəkməsi ehtimal edilən)* bütün mərhələlərdə tərcümə xidmətlərinin göstərilməsi nəzərdə tutulmuşdur.

Həmçinin bax: 1.1-ci yarımbənddəki məlumata.

## 2. Hüquqi məsləhətçilik və pulsuz hüquqi yardım (Maddə 15)

**2.1. İnsan alveri qurbanlarına hüquqi yardım necə, kim tərəfindən və hansı andan etibarən göstərilir? Uşaqlara hüquqi yardım necə göstərilir?**

**Cavab -** İnsan alveri qurbanlarının sosial reabilitasiyasının əsas istiqamətlərindən biri də onlara hüquqlarının bərpa edilməsi üçün hüquqi yardım göstərilməsidir. İnsan alveri qurbanlarına hüquqi yardım onların bu cinayətdən zərər çəkməsi ehtimal edilən ilkin anda insan alveri qurbanları üçün sığınacaqlar və yardım mərkəzləri tərəfindən həyata keçirilir. Uşaqlara yardım gəstərilərkən "Yetkinlik yaşına çatmayanların baxımsızlığının və hüquq pozuntularının profilaktikası haqqında" Azərbaycan Respublikası Qanununun müddəaları nəzərə alınır. İnsan alverinin qurbanı olmuş uşağa yardım göstərilərkən onun mənafeləri üstün tutulur, "Uşaq hüquqları haqqında" Azərbaycan Respublikasının Qanununa, "Uşaq hüquqları haqqında" BMT-nin Konvensiyasına, habelə Azərbaycan Respublikasının digər qanunlarına və tərəfdar çıxdığı beynəlxalq müqavilələrə uyğun olaraq uşağın hüquqlarının və qanuni maraqlarının qorunması üçün bütün tədbirlər görülür.

Sığınacaqlar və yardım mərkəzləri insan alverinin qurbanı olmuş uşaq barədə qəyyumluq və himayə orqanına və Yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə komissiyaya dərhal məlumat verirlər.

**2.2. Ehtimal olunan bütün insan alveri qurbanlarının, mühacirət statusundan və ya zorakılıq növündən asılı olmayaraq, hüquqi yardımdan yararlanmaq imkanı varmı?**

**Cavab -** İnsan alverinin qurbanı olmuş əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə müdafiə və yardım Azərbaycan Respublikasının vətəndaşları ilə bərabər səviyyədə təqdim olunur.

**2.3. İnsan alveri qurbanlarının, o cümlədən uşaqların pulsuz hüquqi yardımdan yararlanması üçün şərtlər necədir? Pulsuz hüquqi yardım hansı növ prosedurlar üçün nəzərdə tutulub? İnsan alveri qurbanlarının kompensasiya tələb etməsinə və kompensasiya qərarınının icrasına köməklik göstərilməsi üçün pulsuz hüquqi yardım nəzərdə tutulubmu? Müvafiq müddəaların mətninin təqdim edilməsi xahiş olunur.**

**Cavab -** İnsan alveri qurbanlarının sosial reabilitasiyası özünü insan alverinin qurbanı kimi təqdim edən hər hansı şəxsə onun xahişi əsasında "İnsan alverinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş xüsusi müəssisələr tərəfindən *(insan alveri qurbanlarının yaşaması üçün sığınacaqlar, insan alveri qurbanlarına yardım mərkəzləri)* Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi, Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi, Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Azərbaycan Respublikasının Təhsil Nazirliyi və "İnsan Alverinə Qarşı Mübarizə üzrə Milli Fəaliyyət Planı"nda nəzərdə tutulmuş digər aidiyyəti orqanlarla qarşılıqlı əməkdaşlıq şəraitində həyata keçirilir.

İnsan alveri qurbanlarının sosial reabilitasiyasının əsas istiqamətləri aşağıdakılardır:

-insan alveri qurbanlarına hüquqlarının bərpa edilməsi üçün hüquqi yardım göstərilməsi;

-insan alveri qurbanlarına və onların ailə üzvlərinə alınmış psixoloji travmanın aradan qaldırılması məqsədilə psixoloji yardımlar göstərilməsi;

-insan alveri qurbanlarının tibbi reabilitasiyası - pozulmuş, yaxud itirilmiş funksiyaların bərpasına yönəldilmiş müalicəvi tədbirlərin həyata keçirilməsi, onların xəstəliyinin, alınmış xəsarətlərin nəticələrinin aradan qaldırılması, psixoloji, fizioloji və anatomik pozuntuların tam və ya qismən bərpası;

- insan alveri qurbanlarının peşə vərdişlərinin bərpasına yönəlmiş peşə reabilitasiyasının həyata keçirilməsi;

- insan alveri qurbanlarının peşə hazırlığının, yenidən hazırlığının və məşğulluğunun təmin edilməsi;

- insan alveri qurbanlarına təhsillərinin davam etdirilməsi ilə bağlı kömək göstərilməsi;

- insan alveri qurbanlarının yaşayış sahəsi ilə təmin edilməsi.

İnsan alveri qurbanlarının fərdi sosial reabilitasiya planının həyata keçirilməsi aşağıdakı kimidir:

- insan alveri qurbanlarına hüquqi yardım insan alveri qurbanları üçün sığınacaqlar və yardım mərkəzləri tərəfindən həyata keçirilir;
- insan alveri qurbanlarına psixoloji yardım “Psixoloji yardım haqqında” Azərbaycan Respublikası Qanununun 6.5-ci maddəsinə uyğun olaraq ödənişsiz həyata keçirilir;
- tibbi reabilitasiya tədbirləri insan alveri qurbanları üçün sığınacaqlar və yardım mərkəzlərinin göndərişi əsasında aidiyyəti tibb müəssisələri tərəfindən həyata keçirilir;
- peşə hazırlığı, yenidən hazırlıq və işə düzəltmə insan alveri qurbanları üçün yardım mərkəzlərinin göndərişi ilə qanunvericiliklə müəyyən edilmiş qaydada Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Məşğulluq Agentliyinin yerli qurumları və “DOST” mərkəzləri tərəfindən həyata keçirilir;
- insan alveri qurbanlarının təhsili insan alveri qurbanları üçün yardım mərkəzlərinin göndərişi əsasında qanunvericiliklə müəyyən edilmiş qaydada təhsil müəssisələri tərəfindən həyata keçirilir;
- insan alveri qurbanlarının yaşayış sahəsi ilə təmin edilməsi insan alveri qurbanları üçün yardım mərkəzlərinin təqdimatı əsasında onların yaşından, ailə və sağlamlıq vəziyyətindən asılı olaraq Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Azərbaycan Respublikasının Təhsil Nazirliyi, Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi, Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi və yerli icra hakimiyyəti orqanları tərəfindən həyata keçirilir.

İnsan alveri qurbanları üçün yardım mərkəzlərinin maliyyələşdirilməsi də daxil olmaqla, insan alveri qurbanlarının sosial reabilitasiyası Azərbaycan Respublikasının dövlət büdcəsi və Azərbaycan Respublikasının qanunvericiliyində nəzərdə tutulmuş digər mənbələr hesabına həyata keçirilir.

**2.4. İnsan alveri qurbanlarının məhkəmədə təmsil olunması və hüquqi yardım göstərilməsi üçün ixtisaslaşmış hüquqşünaslar mövcuddurmu? Bu cür hüquqi yardımla / təmsilçiliklə əlaqədar hansı əsasnamə (əgər varsa) tətbiq olunur?**

**Cavab -** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2005-ci il 9 noyabr 203 nömrəli qərarı ilə təsdiq edilmiş «İnsan alveri qurbanları üçün xüsusi müəsisələrin yaradılması, maliyyələşdirilməsi, fəaliyyəti, habelə onların fəaliyyətinə nəzarət Qaydalarında dəyişikliklər edilməsi haqqında» Nazirlər Kabinetinin 2015-ci ilin 25 iyun tarixli 244 nömrəli qərarına əsasən İnsan alverinə qarşı mübarizə üzrə Milli Koordinatorla razılaşdırmaqla xüsusi müəssisə tərəfindən insan alveri qurbanlarının sosial reabilitasiyası üzrə tədbirlərə müqavilə əsasında ştatdan kənar mütəxəssisin cəlb edilməsi təmin olunmuş, insan alveri qurbanlarına hüquqi yardımın təmin edilməsi məqsədilə Daxili İşlər Nazirliyinin İnsan Alverinə qarşı Mübarizə Baş İdarəsi və Vəkillər Kollegiyasının üzvü olan vəkillə müqavilə bağlanmışdır.

**2.5. İnsan alveri qurbanlarına hüquqi məsləhətçilik və pulsuz hüquqi yardım göstərilməsi necə maliyyələşdirilir? İnsan alveri qurbanları hüquqi yardımdan yararlanmaq və ya prosedura başlamaq üçün ödəniş etməlidirlərmi, yaxud burada digər maddi maneələr varmı? Əgər varsa, məbləğ(lər)in göstərilməsi xahiş olunur.**

**Cavab -** Nazirlər Kabinetinin 2006-cı il 6 mart tarixli 62 nömrəli qərarı ilə təsdiq edilmiş "İnsan alveri qurbanlarının sosial reabilitasiyasının həyata keçirilməsi Qaydaları"nın 10-cu hissəsinə əsasən insan alveri qurbanları üçün yardım mərkəzlərinin maliyyələşdirilməsi də daxil olmaqla, insan alveri qurbanlarının sosial reabilitasiyası dövlət büdcəsi və ölkə qanunvericiliyində nəzərdə tutulmuş digər mənbələr hesabına həyata keçirilir.

Eyni zamanda Nazirlər Kabinetinin 2009-cu il 11 avqust tarixli 123 nömrəli qərarı ilə təsdiq edilmiş "İnsan alveri qurbanları ilə bağlı Milli İstiqamətləndirmə Mexanizmi Qaydaları"nın 3-cü hissəsinə əsasən insan alveri qurbanlarına göstərilən hüquqi yardımın maliyyələşdirilməsi məqsədi ilə qrantlar verilməsi üçün Milli Koordinator tərəfindən Nazirlər Kabinetinə müraciət edilə bilər.

## 3. Canilər tərəfindən kompensasiya ödənilməsi (Maddə 15)

**3.1. Cinayət prosedurunun bir hissəsi kimi, canilər tərəfindən insan alveri qurbanlarına, o cümlədən uşaqlara kompensasiya ödənilməsi məqsədi ilə məhkəmələrə səlahiyyət verilməsi üçün hansı tədbirlər görülür? Bu xüsusda dövlət ittihamçılarının rolu nədən ibarətdir?**

**Cavab -** İnsan alverindən zərər çəkmiş şəxslərə *(uşaqlara)* dəymiş maddi və mənəvi ziyanın ödənilməsi məsələsinin həll edilməsi səlahiyyəti Azərbaycan qanunvericiliyinə əsasən məhkəmələrə verilmişdir.

İnsan alverindən zərər çəkmiş şəxslərə dəymiş ziyan prosessual qanunvericiliyə uyğun olaraq insan alverçilərinin əmlakı hesabına ödənilir. Bu əmlak kifayət etmədikdə, dəymiş ziyan məhkəmənin qərarına əsasən insan alveri qurbanlarına kömək fondunun vəsaiti hesabına ödənilə bilər.

İnsan alverindən əldə edilmiş bütün əmlak *(daşınmaz əmlak, pul vəsaitləri, qiymətli kağızlar və sair əmlak)* qanunvericiliklə müəyyən edilmiş qaydada məhkəmənin qərarı ilə müsadirə olunur və xüsusi yaradılmış insan alveri qurbanlarına kömək fonduna keçirilir.

Dövlət ittiahmçısı cinayət işi üzrə ittihamı müdafiə etməkdir. Eyni zamanda Dövlət ittihamçısı məhkəmədə zərər çəkmiş şəxsin mülki iddia ilə bağlı verdiyi vəsatəti müdafiə edir.

**3.2. Kompensasiya məbləği necə hesablanır və kompensasiya məbləğinin hesablanması üçün səciyyəvi meyarlar və ya modellər mövcuddurmu? Hansı növ zərərlər / ziyanlar və xərclər kompensasiya olunur? Kompensasiya məbləğinin azalmasına gətirib çıxara bilən hər hansı hallar / şərtlər mövcuddurmu?**

**Cavab -** Cinayətin əlamətləri olan əməldən zərər çəkmiş şəxsin Azərbaycan Respublikasının Cinayət-Prossesual Məcəlləsində nəzərdə tutulmuş qaydada cinayət təqibinin başlanılmasını tələb etməyə, onun həyata keçirilməsində zərər çəkmiş şəxs və ya xüsusi ittihamçı qismində iştirak etməyə, habelə vurulmuş mənəvi, fiziki və maddi ziyana görə kompensasiya almağa hüququ vardır.

İnsan alveri cinayətindən zərər şəkən şəxs cinayət qanunu ilə nəzərdə tutulmuş əməl nəticəsində ona vurulmuş ziyana görə qanunla müəyyən edilmiş kompensasiyanı dövlət hesabına almaq və cinayət işi üzrə icraat zamanı sərf edilmiş xərclərin ödənilməsinə və cinayət prosesini həyata keçirən orqanın qanunsuz hərəkətləri nəticəsində ona vurulmuş ziyana görə kompensasiya almaq hüququna malikdirlər.

Cinayət qanunu ilə nəzərdə tutulmuş əməllə vurulmuş ziyana görə zərər çəkmiş şəxs kompensasiya almaq hüququna o zaman malik olur ki, ona qarşı bu əməlin törədilməsi aşağıdakılarla müəyyən olunur:

- məhkəmənin hökmü ilə;
- cinayət prosesini həyata keçirən orqanın yekun qərarı ilə.

Zərər çəkmiş şəxs cinayət qanunu ilə nəzərdə tutulmuş əməllə ona vurulmuş ziyana görə aşağıdakı məbləğdə kompensasiya almaq hüququna malikdir:

- ona qarşı xüsusilə ağır cinayət törədildikdə —üç yüz otuz manat;
- ona qarşı ağır cinayət törədildikdə —yüz altmış beş manat;
- ona qarşı az ağır cinayət törədildikdə —əlli beş manat;
- ona qarşı böyük ictimai təhlükə törətməyən cinayət törədildikdə —on bir manat.

Kompensasiya cinayət işi üzrə çıxarılmış qərardan asılı olmayaraq, mülki mühakimə icraatı qaydasında həll olunur.

Cinayət mühakimə icraatında mülki iddia bu Məcəllənin müddəaları ilə müəyyən edilmiş qaydalara əsasən verilir, sübut və həll olunur.

Bilavasitə cinayət qanunu ilə nəzərdə tutulmuş əməllə fiziki və ya hüquqi şəxsə maddi ziyan vurulduqda o, ziyanın ödənilməsi barədə mülki iddia verməklə aşağıdakıları edə bilər:

- itirilmiş və ya zədələnmiş əmlakın dəyərinin, mümkün olan hallarda isə əmlakın natura şəklində ödənilməsini;
- itirilmiş əmlakın satın alınmasına, habelə zədələnmiş əmlakın keyfiyyətinin, əmtəə görünüşünün bərpa və təmir edilməsinə sərf olunmuş xərclərin ödənilməsini;
- itirilmiş gəlirin ödənilməsini;
- mənəvi ziyanın ödənilməsini.

Maddi ziyan o halda cinayət qanunu ilə nəzərdə tutulmuş əməlin törədilməsi ilə əlaqədar vurulmuş hesab olunur ki, o, aşağıdakı xərclər şəklində özünü göstərir:

- zərər çəkmiş şəxsin müalicəsinə və ona qulluq göstərilməsinə;
- zərər çəkmiş şəxsin dəfninə;
- sığorta ödəməsinə, müavinət və pensiya verilməsinə;
- əmlakın mühafizəsinə dair müqavilənin icrasına çəkilən xərclər.

Cinayət mühakimə icraatı zamanı mülki iddia fiziki və ya hüquqi şəxsin adından onun nümayəndəsi tərəfindən verilə bilər.

Cinayət mühakimə icraatı zamanı mülki iddia vermək hüququ olan hər hansı fiziki şəxs öldükdə mülki iddia vermək hüququ onun varislərinə, hüquqi şəxsin ləğv və ya yenidən təşkil edildiyi hallarda isə onun hüquqi varisinə keçir.

Cinayət mühakimə icraatı zamanı dövlət əmlakının mühafizəsi, habelə mülki iddia vermək hüququ olan fiziki şəxsin öz qanuni mənafelərini şəxsən müdafiə etmək imkanı olmadıqda, prokuror onların hüquqlarının müdafiəsi üçün mülki iddia verir və onu müdafiə edir. Mənəvi ziyanın ödənilməsinə dair iddianı prokuror yalnız zərər çəkmiş şəxsin xahişi ilə verə bilər.

Cinayət mühakimə icraatı zamanı prokuror təqsirləndirilən şəxsə və ya onun hərəkətlərinə görə cavabdeh olan şəxsə qarşı aşağıdakı hallarda iddia verir və onu müdafiə edir:

- dövlət mənafeyinin müdafiəsi üçün dövlət idarə, müəssisə və ya təşkilatının müraciəti olduqda;
- mülki iddia vermək hüququna malik olan fiziki şəxsin fəaliyyət qabiliyyəti olmadıqda və ya o, məhdud fəaliyyət qabiliyyətli olduqda.

Cinayət işi və ya cinayət təqibi ilə bağlı digər material üzrə sənədlər və sübutlar buna imkan verirsə, müstəsna hallarda məhkəmə baxışı zamanı şəxs verilmiş mülki iddianı şəxsən müdafiə etmək imkanından məhrum olduqda məhkəmə öz təşəbbüsü ilə cinayət qanunu ilə nəzərdə tutulmuş əməllə ona vurulmuş ziyanın ödənilməsi barədə qərar qəbul etməyə haqlıdır.

**3.3. Kompensasiya haqqında qərarlar / qətnamələr necə qüvvəyə minir? Kompensasiya ödənişinin effektivliyini təmin etmək və bu ödənişə zəmanət vermək üçün hansı tədbirlər görülür?**

**Cavab -** Azərbaycan Respublikası dövlət büdcəsinin vəsaiti hesabına zərər çəkmiş şəxsə cinayət qanunu ilə nəzərdə tutulmuş əməllə vurulmuş ziyana görə kompensasiya verilməsi məsələsini zərər çəkmiş şəxsin ərizəsi ilə məhkəmə həll edir.

Zərər çəkmiş şəxsə Azərbaycan Respublikasının dövlət büdcəsinin vəsaiti hesabına kompensasiya verilməsi haqqında qərarı ittiham hökmündə əks etdirərkən məhkəmə həmçinin kompensasiya qismində ayrılan pul məbləğinin məhkum edilmiş şəxsdən tutulub dövlət büdcəsinə qaytarılmasını hökmdə göstərir.

Mülki Prosessual Məcəllənin 233.1-ci maddəsinə əsasən Məcəllədə qeyd olunan hallar istisna olmaqla, məhkəmə qətnaməsindən şikayət verilməmişdirsə, qətnamə işdə iştirak edən şəxslərə rəsmi qaydada verildiyi gündən 1 ay keçdikdən sonra qanuni qüvvəyə minir.

Məcəllənin 234.1-ci maddəsinə əsasən qətnamə qanuni qüvvəyə mindikdən sonra icra edilir (dərhal icrası nəzərdə tutulan qətnamələr istisna olmaqla).

**3.4. İnsan alveri qurbanları zorakılığa məruz qaldığı ölkədən çıxarıldıqda, yaxud həmin ölkəni tərk etməyi qərara aldıqda onların kompensasiya və digər müavinətlər əldə etməsi üçün hansı tədbirlər görülür?**

**Cavab -** İlk növbədə qeyd edilməlidir ki, insan alverinin qurbanı olmuş əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə müdafiə və yardım Azərbaycan Respublikasının vətəndaşları ilə bərabər səviyyədə təqdim olunur. İnsan alverinin qurbanı olan əcnəbilər ölkədən deportasiya deyil repatriasiya olunur.

Qurbanların repatriasiyası könüllülük prinsipi əsasında həyata keçirilməklə, insan alverindən zərər çəkmiş şəxslərin müdafiəsi üzrə tədbirlər sisteminin vacib elementlərindəndir və onların insan alverinin qurbanları kimi yardım almaq hüquqlarının həyata keçirilməsinə təminat verir, cəmiyyətə reinteqrasiyasına, normal həyat tərzinə qayıtmasına şərait yaradır.

Qurbanların repatriasiyası ilə bağlı beynəlxalq əməkdaşlıq zamanı BMT-nin “Transmilli mütəşəkkil cinayətkarlığa qarşı” Konvensiyası, onu tamamlayan “İnsan alverinin, xüsusən qadın və uşaq alverinin qarşısının alınması, aradan qaldırılması və cəzalandırılması haqqında” Protokol və Avropa Şurasının “İnsan alverinə qarşı mübarizə haqqında” Konvensiyası rəhbər tutulur.

İnsan alverinin qurbanına öz vəziyyətini bərpa etmək, cinayətkarların təsirindən yayınmaq və cinayət təqibi orqanları ilə əməkdaşlıq etmək barədə düşünülmüş qərar qəbul etmək üçün 30 (otuz) gün bərpa və fikirləşmə müddəti verilir.

Bərpa və fikirləşmə müddətində insan alverinin qurbanı təhlükəsizlik və müdafiə ehtiyaclarının təmin edilməsi, fiziki, psixoloji və sosial vəziyyətinin bərpası üçün insan alveri qurbanları üçün sığınacaq və yardım mərkəzlərinin xidmətlərindən istifadə edə bilər. Bərpa və fikirləşmə müddətində insan alverinin qurbanına Azərbaycan Respublikasının hüdudlarından kənara inzibati qaydada çıxartma tətbiq edilmir.

Bərpa və fikirləşmə müddəti başa çatdıqdan sonra insan alverinin qurbanı olmuş əcnəbi və vətəndaşlığı olmayan şəxslərə onların istəyi ilə 1 (bir) il müddətinə müvəqqəti yaşama icazəsi verilir.

Bərpa və fikirləşmə müddəti başa çatdıqdan sonra, yaxud müvəqqəti yaşama icazəsi dövründə qurbanlar Azərbaycan Respublikasının hüdudlarını tərk etmək arzusunda olduqda, onların repatriasiyası həyata keçirilir.

Repatriasiya ediləcək qurbanların müvafiq sənədləri *(şəxsiyyətini təsdiq edən sənəd, yol sənədləri və s.)* olmadıqda, həmin sənədlərin qanunla müəyyən edilmiş qaydada əldə edilməsi istiqamətində müvafiq tədbirlər yerinə yetirilir.

Repatriasiya ediləcək qurbanların nəqliyyat və repatriasiya ilə bağlı digər zəruri xərclərinin ödənilməsinə köməklik göstərilir.

Qurbanların repatriasiyası zamanı onların hüquqlarının qorunması, təhlükəsizliyinin və onlarla nəzakətli rəftarın təmin edilməsi istiqamətində müvafiq tədbirlərin görülməsi işi davam etdirilməli, repatriasiya üzrə üzrsüz gecikmələrə və ya ləngitməyə yol verilmir.

Qurbanlar repatriasiya edilərkən onları qəbul edəcək ölkənin vətəndaşı və ya orada yaşama hüququna malik olub-olmamaları yoxlanılır və bu məsələ ilə bağlı gələcəkdə digər çətinliklərin yaranmaması üçün müvafiq tədbirlər görülür.

Qurbanların repatriasiyası təmin edilərkən, qəbul edən ölkənin repatriasiya üzrə zəruri əməkdaşlığa və qurbanları qəbul etməyə dair müvafiq rəsmi razılığı əldə edilir, repatriasiya ilə əlaqədar qarşılıqlı fəaliyyət göstərilir. Qurbanlar geri qaytarıldıqdan sonra onlarla bağlı məsələlərə dair əməkdaşlıq davam etdirilir.

Qurbanlar öz ölkələrinə repatriasiya edildikdən sonra yenidən insan alverinə məruz qalma riski və ya insan alverçiləri tərəfindən təqiblə üzləşmə təhlükəsi baxımından risk və təhlükə dərəcəsinin qiymətləndirilməsi aparılır, belə qiymətləndirmənin nəticələri repatriasiya prosesi zamanı nəzərə alınır.

Qurbanlara onları qəbul ediləcəyi ölkədə insan alverinin qurbanı olması təhlükəsinin azaldılmasına dair tövsiyələr verilir, habelə bu mümkün olduğu halda qəbul edən ölkələrdə onlara yardım edə biləcək hüquq mühafizə orqanlarının, qeyri-hökumət təşkilatlarının, hüquq müdafiəçilərinin və sosial təminat qurumlarının əlaqə məlumatları təqdim edilir.

Azərbaycana repatriasiya edilmiş insan alveri qurbanlarının peşə qabiliyyətinə yiyələnməsi və ya peşə qabiliyyətlərinin təkmilləşdirilməsi, təhsil sistemindən faydalanması, əmək bazarına inteqrasiya olunması və ümumilikdə sosial reabilitasiyası, normal həyat tərzinə qayıtması istiqamətində “İnsan alverinə qarşı mübarizə haqqında” Azərbaycan Respublikasının Qanunu, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2006-cı il 6 mart tarixli 62 nömrəli qərarı ilə təsdiq edilmiş “İnsan alveri qurbanlarının sosial reabilitasiyasının həyata keçirilməsi Qaydaları” və 2009-cu il 11 avqust tarixli 123 nömrəli qərarı ilə təsdiq edilmiş “İnsan alveri qurbanları ilə bağlı Milli İstiqamətləndirmə Mexanizmi Qaydaları” çərçivəsində tədbirlər görülür.

**3.5. Əmək istismarı məqsədi ilə zorakılığa məruz qalan insan alveri qurbanlarına kompensasiya ödənişinin effektivliyinin təmin olunması üçün hansı prosedurlar icra olunur? Bu cür qurbanlar mülki qanun pozuntusu, əmək, məşğulluq və ya digər qanunlar əsasında ödənilməmiş müavinətlərlə və sosial ödənişlərlə, yaxud kompensasiyanın ödənilməməsi ilə bağlı mülki iddialar irəli sürə bilərlərmi? Müvafiq tədbirlərin qeyd edilməsi xahiş olunur. Müvəqqəti məşğulluq əsasında, yaxud müqaviləsiz işləyən insan alveri qurbanları kompensasiyanın və digər müavinətlərin ödənilməsini tələb edə bilərmi və əgər bilərsə, həmin kompensasiya və müavinətlərin məbləği necə müəyyən olunur?**

**Cavab -** Bax 3.1, 3.2, 3.3-cü yarımbəndlərin cavabına.

**3.6. İnsan alveri qurbanlarına kompensasiya və müavinətlərin ödənilməsi ilə əlaqədar, müvafiq peşəkarların, o cümlədən, hüquqşünasların, hüquq-mühafizə orqanları məmurlarının, dövlət ittihamçılarının və hakimlərin bilik və bacarıqlarının artırılması üçün hansı treninqlər keçirilir?**

**Cavab -** 2018-2021-ci illərdə ədliyyə orqanlarına qulluğa qəbul üzrə müsabiqədə uğur qazanmış namizədlərin, Ədliyyə Nazirliyinin və Naxçıvan Muxtar Respublikasının Məhkəmə ekspertizası mərkəzlərinə qulluğa qəbul üzrə müsahibədə müvəffəqiyyət qazanmış namizədlərin, Penitensiar xidmətin orta rəis heyətinə, prokurorluq orqanlarına ilk dəfə qulluğa qəbul edilən namizədlərin, Vəkillər Kollegiyasının üzvlüyünə qəbulla bağlı ixtisas imtahanlarını müvəffəqiyyətlə vermiş namizədlərin peşə fəaliyyətinə buraxılmaları məqsədilə keçirilən icbari təlimin, hakimliyə namizədlərin ilkin tədris kursunun, Məhkəmə ekspertizası mərkəzinin əməkdaşlarının, Tibb xidmətinə qulluğa yeni qəbul edilmiş işçilərin hüquqi biliklərə yiyələnməsi məqsədilə keçirilən tədris kursunun proqramına "İnsan alverinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanunu, "İnsan alveri ilə mübarizə sahəsində beynəlxalq qanunvericilik (Avropa qanunvericiliyi)", "İnsan alverinə qarşı mübarizə", "İnsan alveri cinayətlərinin ictimai təhlükəliliyi, məişət zorakılığı və onunla mübarizə", "İnsan alveri və əlaqədar cinayət işlərinə məhkəmə qaydasında baxılmasının xüsusiyyətləri" mövzuları tədris edilmiş və hazırda da tədris edilməkdədir. Qeyd edilən mövzular daxilində təlimçilər tərəfindən "İnsan alveri qurbanlarına kompensasiya və müavinətlərin ödənilməsi" məsələsinə diqqət ayrılmışdır. Ümumilikdə bu kurslarda 1269 nəfər şəxs iştirak etmişdir.

2018-2021-ci illərdə qeyd edilən mövzu ilə əlaqədar, həmçinin hakimlər, vəkillər, prokurorluq orqanlarının əməkdaşları üçün bir sıra təlim və digər tədbirlər keçirilmişdir.

Müvafiq tarixlərdə "Cinayət təqibini həyata keçirən orqanlar üçün insan alverinə qarşı mübarizə", "İnsan alveri və əlaqədar cinayət işlərinə məhkəmə qaydasında baxılması", "İnsan alveri qurbanlarının müəyyən edilməsi qaydaları (indikatorları) Azərbaycanda insan alverinə qarşı mübarizədə şahidlərin müdafiəsi sistemi", "İnsan alveri qurbanlarına kompensasiya və müavinətlərin ödənilməsi" mövzularında təlimlər keçirilmişdir.

Ümumilikdə bu tədbirlərdə 116 nəfər hakim, 157 nəfər vəkil, 12 nəfər prokurorluq orqanlarının əməkdaşı, 8 nəfər Daxili İşlər Nazirliyinin əməkdaşı və 10 nəfər ədliyyə işçisi iştirak etmişdir.

Bundan başqa Beynəlxalq Miqrasiya Təşkilatının (BMqT) Azərbaycandakı nümayəndəliyinin və BMqT-nin regional ofisinin dəstəyi ilə inkişaf etmiş ölkələrin insan alveri ilə mübarizə sahəsində təcrübəsinin öyrənilməsi məqsədilə 2019-cu ilin 14-19 aprel tarixlərdə 3 hakim, 1 vəkil, 3 Daxili İşlər Nazirliyinin əməkdaşı, 2 prokurorluq orqanı və 2 Ədliyyə Akademiyasının əməkdaşının iştirakı ilə Avstriyanın paytaxtı Vyana şəhərinə, 12-17 may tarixlərində isə 2 hakim, 1 vəkil, 3 Daxili İşlər Nazirliyinin, 2 prokurorluq orqanı və 3 Ədliyyə Akademiyasının əməkdaşının iştirakı ilə Litvanın paytaxtı Vilnüs şəhərinə səfərləri təşkil edilmişdir.

Eyni zamanda Beynəlxalq Miqrasiya Təşkilatı və Ədliyyə Akademiyasının birgə təşkilatçılığı ilə “Azərbaycanda potensialların artırılması və texniki dəstək vasitəsilə insan alverinə qarşı mübarizənin səmərəliliyi üçün əməkdaşlığın gücləndirilməsi – VI Faza” layihəsi çərçivəsində “İnsan Alverinə Qarşı Mübarizə” mövzusunda dərs vəsaiti çap edilmişdir.

Bununla yanaşı layihə çərçivəsində “İnsan alverinin milli qanunvericiliyə əsasən anlayışı və elementləri”, “İnsan alveri ilə mübarizə sahəsində beynəlxalq əməkdaşlıq”, “İnsan alveri ilə mübarizə: Qanunvericilik və təcrübə” mövzularında videodərslər “Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinin Ədliyyə Akademiyasına dəstək məqsədli elektron-tədris modulları – II Faza” layihəsi çərçivəsində yaradılmış “Moodle” platformasına daxil edilmişdir.

## 4. Dövlət kompensasiyası (Maddə 15)

**4.1. Cinayət qurbanları üçün işlənib hazırlanmış dövlət kompensasiyası sxemləri üzrə hüquqvermə meyarlarında bəzi insan alveri qurbanlarının istisna edilməsi (məsələn, müvəqqəti yaşama status, milliyyət, zorakılığın mahiyyəti kimi səbəblərdən) nəzərdə tutulurmu? Dövlət kompensasiyasının ödənilməsi cinayət hadisəsinin mahiyyətindən və canilərdən kompensasiya tutulmasının mümkünsüzlüyündən asılıdırmı?**

**Cavab -** İnsan alveri qurbanlarının cəmiyyətdə ayrı-seçkiliyə məruz qalmasının qarşısının alınması insan alverinə qarşı mübarizənin əsas prinsiplərindən biri olmaqla digər cinayətlərdən zərər çəkən şəxslərdən fərqli olaraq insan alveri cinayətindən zərər çəkən şəxslərin aşağıdakı müstəsna hüquqları vardır.

- Xüsusi müəssisələrin (sığınacaq və yardım mərkəzlərinin) xidmətlərindən istifadə;
- Xidmətlərdən pulsuz (ödənişsiz) istifadə;
-Bərpa və fikirləşmə müddəti;
- Kompensasiya;
-Cəzalanmama;
-Yaşayış icazəsi;
-Könüllü iştirak;
- Konfidensiallıq.

İnsan alveri qurbanlarına dəymiş ziyan insan alverçilərinin əmlakı hesabına ödənilir, bu əmlak kifayət etmədikdə İnsan alveri qurbanlarına Kömək Fondu hesabına ödənilir.

**4.2. İnsan alveri qurbanının məruz qaldığı ziyanın təsirinin aradan qaldırılması üçün dövlət kompensasiyasının məbləği necə hesablanır?**

**Cavab -** “İnsan alverinə qarşı mübarizə haqqında” Qanunun 17.2-ci maddəsinə əsasən insan alverindən zərər çəkmiş şəxslərə reinteqrasiya dövründə Azərbaycan Respublikasının qanunvericiliyinə müvafiq olaraq dövlət büdcəsi və digər mənbələr hesabına müavinət ödənilir.

"İnsan alverindən zərər çəkmiş şəxslərə reinteqrasiya dövründə ödənilən müavinətin məbləğinin müəyyən edilməsi barədə" Nazirlər Kabinetinin 2006-cı il 17 iyun tarixli 152 nömrəli Qərarına əsasən insan alverindən zərər çəkmiş şəxslərə ödənilən müavinətin məbləği 700 manat müəyyən edilmişdir. Bununla əlaqədar müvafiq maliyyələşdirmə Daxili İşlər Nazirliyi üçün dövlət büdcəsində nəzərdə tutulmuş vəsait hesabına həyata keçirilir.

Nazirlər Kabinetinin 2009-cu il 11 avqust tarixli 123 nömrəli qərarı ilə təsdiq edilmiş "İnsan alveri qurbanları ilə bağlı Milli İstiqamətləndirmə Mexanizmi Qaydaları"nın 3-cü hissəsinə əsasən qurbanlar kompensasiya almaq, cinayət nəticəsində dəymiş maddi və mənəvi ziyanın ödənilməsi məqsədilə mülki iddia qaldırmaq hüququna malikdirlər. Daxili İşlər Nazirliyinin nəzdində yaradılan İnsan Alveri Qurbanlarına Kömək Fondu tərəfindən qanunvericilikdə nəzərdə tutulmuş qaydada qurbanlara kompensasiya ödənilir. Kompensasiya zərərçəkmişin hüquq mühafizə orqanları ilə əməkdaşlıq edib-etməməsindən asılı olmayaraq ödənilir. İnsan alverindən zərər çəkmiş şəxslərə dəymiş ziyan prosessual qanunvericiliyə uyğun olaraq insan alverçilərinin əmlakı hesabına, bu əmlak kifayət etmədikdə isə məhkəmənin qərarına əsasən Kömək Fondunun vəsaiti hesabına ödənilir. Kömək Fondu tərəfindən kompensasiyanın ödənilməsi sonradan qurbanın cinayət nəticəsində dəymiş maddi və mənəvi ziyanın ödətdirilməsini tələb etmək hüququnu məhdudlaşdırmır. Kompensasiya qurbanın öz istəyi ilə bank əməliyyatları vasitəsilə və ya nağd pulla ödənilir.

Bax 3.2-ci yarımbəndin cavabına.

**4.3. İnsan alverinin qurbanı olmuş əcnəbi şəxslər öz mənşə ölkəsinə qayıtdıqdan və ya qaytarıldıqdan sonda sizin ölkənizdə dövlət kompensasiyası almaq üçün müraciət edə bilərmi? Bu cür hallara misal göstərilməsi və bu imkanı şərtləndirən tədbirlərin qeyd edilməsi xahiş olunur.**

**Cavab -** Bax 3.4-cü yarımbəndin cavabına. Əcnəbilərin öz əlkəsinə repatriasiyasından sonra dövlət kompensasiyası almaq üçün müraciət etmək hüququ qanunvericiliklə tənzimlənsə də təcrübədə belə hal qeydə alınmamışdır.

**4.4. Dövlət kompensasiyası almağa iddialı olan insan alveri qurbanları hüquqşünaslara haqq ödənilməsinə görə cavabdehdirlərmi? Dövlət kompensasiyasının ödənişindən vergi tutulurmu? Kompensasiyanın ödənilməsi sosial təhlükəsizlik və digər imtiyazlardan yararlanmağa zəmin yaradırmı?**

**Cavab -** İnsan alveri qurbanlarının hüquq və mənafelərinin müdafiəsi məqsədilə DİN-in İnsan Alverinə qarşı Mübarizə Baş İdarəsi ilə Vəkillər Kollegiyasının üzvü olan vəkillə bağlanmış müqaviləyə əsasən insan alverinin qurbanlarının müdafiəsi Daxili İşlər Nazirliyinin büdcə vəsaiti hesabına ödənilir. Cinayət mühakimə icraatı zamanı mülki iddiaların verilməsi zamanı isə vergi tutulmur.

## 5. Sanksiyalar və tədbirlər (Maddə 23)

**5.1. Sizin ölkənizdə i) qanun pozuntusuna yol vermiş canilərin əmlakının müsadirə olunmasına; sonradan müsadirə edilmək üçün, müsadirə ediləcək əmlakın müəyyən edilməsinə, dondurulmasına və ya tez bir zamanda götürülməsinə icazə verən qanunvericilik və digər tədbirlərin qeyd edilməsi xahiş olunur. Bu tədbirlər, qanunsuz fəaliyyət yolu ilə əldə edilmiş əmlakı müəyyən etməyə, dondurmağa və götürməyə imkan yaradırmı?**

**Cavab -** "Azərbaycan Respublikasında insan alverinə qarşı mübarizəyə dair 2020-2024-cü illər üçün Milli Fəaliyyət Planı"nın 4.3.2-ci yarımbəndinə əsasən İnsan alveri və məcburi əmək cinayətlərinin ibtidai araşdırılması çərçivəsində bu cinayətlərdən əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın da aşkar edilməsi üçün tədbirlər görülməsi, onların leqallaşdırılmasının qarşısının alınması nəzərdə tutulmuşdur.

Cinayət-Prosessual Məcəlləyə əsasən cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılması və ya terrorçuluğun maliyyələşdirilməsinə şübhə yaradan əməliyyatların icrasının dayandırılması istintaq hərəkətinin məcburi aparılması üçün bir qayda olaraq məhkəmə qərarının alınması tələb olunur. Müstəntiq müvafiq məhkəmə qərarı olmadan öz qərarı əsasında cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılması və ya terrorçuluğun maliyyələşdirilməsinə şübhə yaradan əməliyyatların icrasının dayandırılması – pul vəsaitləri və ya digər əmlakla əməliyyatın terrorçuluğun maliyyələşdirilməsinə yönəlməsini və ya cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasını güman etməyə kifayət qədər əsas verən təxirə salına bilməyən hallar yarandıqda istintaq hərəkətini məcburi apara bilər.

Bundan başqa Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 193-1-ci maddəsinə əsasən Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərini və ya digər əmlakı leqallaşdırmağa görə cinayət məsuliyyəti nəzərdə tutulmuşdur.

**5.2. İnsan alveri qurbanları, cinayətkarlardan müsadirə olunmuş əmlakdan necə yararlanırlar? Müsadirə olunmuş əmlak bilavasitə insan alveri qurbanlarına, kompensasiya fonduna, insan alveri ilə mübarizə sxemlərinə, yaxud insan alveri qurbanlarına yardım proqramlarına yönəldilirmi? İnsan alveri cinayəti üzrə əmlakın müsadirəsi və həmin əmlakdan necə istifadə olunması haqqında məlumat verilməsi xahiş olunur.**

**Cavab -** İnsan alverindən əldə edilmiş bütün əmlak *(daşınmaz əmlak, pul vəsaitləri, qiymətli kağızlar və sair əmlak)* qanunvericiliklə müəyyən edilmiş qaydada məhkəmənin qərarı ilə müsadirə olunur və xüsusi yaradılmış insan alveri qurbanlarına kömək fonduna keçirilir. İnsan alveri qurbanlarına kömək fondunda toplanmış vəsaitlər insan alveri qurbanlarına kompensasiyaların ödənilməsinə, onların sosial reabilitasiyasına, tibbi və digər zəruri xərclərinin ödənilməsinə yönəldilir.

**5.3. İnsan alveri hallarında günahın etirafı haqqında sazişdən, yaxud digər bu kimi həlletmə üsullarından istifadə etmək mümkündürmü? Əgər mümkündürsə, müvafiq müddəaların göstərilməsi xahiş olunur. İnsan alveri qurbanlarının ədalətli və effektiv tədbirlərdən yararlanmaq hüququnun günahın etirafı haqqında sazişin və ya hüquqi prosesdə digər həlletmə üsulunun təsirinə məruz qalmaması üçün hansı tədbirlər görülür?**

**Cavab -** İlk növbədə qeyd edilməlidir ki, insan alveri cinayəti törətmiş şəxsin təqsirini etiraf etməsi haqqında Saziş Azərbaycan respublikasının qanunvericiliyində nəzərdə tutulmamışdır. Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 59-cu maddəsinə əsasən şəxsin könüllü gəlib təqsirini boynuna alması, cinayətin açılmasına, onun digər iştirakçılarının ifşa edilməsinə, cinayət nəticəsində əldə edilmiş əmlakın axtarışına və tapılmasına fəal kömək etməsi məhkəmədə cəza təyini zamanı yüngülləşdirici hal kimi nəzərə alınır.

**5.4. İnsan alveri hallarında məhkəmə prosedurlarının orta müddəti nə qədərdir? Hansı hallarda bu cür işlərə baxılması üstünlük təşkil edir? İstintaq prosesinin təkmilləşdirilməsi və qurbanların və şahidlərin, o cümlədən uşaqların üzərinə düşən yükün azaldılması üçün insan alveri hallarının sürətli təhqiqatı üçün sistem varmı? Hakimlərin insan alveri halları ilə lazımsız gecikmələrə yol vermədən məşğul olması üçün hansı tədbirlər görülür?**

**Cavab -** Azərbaycan Respublikası Cinayət-Prossesual Məcələsinin 48-ci maddəsində Cinayət təqibi üzrə icraatın tezliyinin təmin olunması nəzərdə tutulmuşdur. Cinayət təqibi üzrə icraat təhqiqatçı, müstəntiq, prokuror və ya məhkəmə tərəfindən Cinayət-Prossesual Məcəllədə nəzərdə tutulmuş müddətlərdə elə başlanmalı və qurtarmalıdır ki:

- sübutların vaxtında əldə olunması və tədqiq edilməsi təmin olunsun;
- şəxslər onlara ittiham elan olunmasını, işlərinə baxılmasını və pozulmuş hüquqlarının bərpasını həddən artıq uzun müddət gözləməsinlər.

İbtidai istintaq müddəti cinayət işinin başlandığı gündən hesablanır, işin məhkəməyə göndərilməsi və ya icraatına xitam verilməsi haqqında qərarın çıxarıldığı gün bitir.

İnsan alveri cinayəti ağır və xüsusilə ağır cinayətlər təsnifatına daxil olduğu üçün ibtidai istintaq 4 ay müddətinə başa çatdırılmalıdır. İbtidai istintaq müvafiq qaydada cinayət işinin mürəkkəbliyi ilə əlaqdar 3 və 4 aydan çox olmayan, xüsusi mürəkkəbliyi ilə əlaqədar 3 və 5 aydan çox olmayan, müstəsna mürəkkəbliyi ilə əlaqədar 3 və 6 aydan çox olmayan müddətə uzadıla bilər. Qeyd olunanlara riayət edilməklə açılmış cinayət haqqında cinayət işi üzrə ibtidai istintaq hər bir halda ağır və xüsusilə ağır cinayətlərə görə 13 və 19 ay müddətlər daxilində qurtarmalıdır.

Məhkəmə baxışı cinayət işinə baxılması üçün—məhkəmənin hazırlıq iclasının keçirildiyi andan 15 (on beş) gündən artıq olmayan müddətdə təyin edilir.

İnsan alveri hallarının sürətli təhqiqatı üçün bu sahə üzrə ixtisaslaşmış xüsusi polis qurumu (DİN-in İnsan Alverinə qarşı Mübarizə Baş İdarəsi) fəaliyyət göstərir. İnsan Alverinə qarşı Mübarizə Baş İdarəsi öz səlahiyyətləri daxilində insan alveri cinayətləri ilə bağlı əməliyyat-axtarış fəaliyyətini və cinayət təqibini həyata keçirir.

İnsan alveri cinayətləri ağır və xüsusilə ağır cinayətlər kateqoriyasına aid olduğu üçün bu işlərə təxirə salınmadan ixtisaslaşmış Ağır Cinayətər məhkəmələri tərəfindən baxılır. Qeyd olunan məhkəmələrin hakimləri tərəfindən insan alveri halları ilə bağlı gecikmələrə yol verilmir.

Eyni zamanda Cinayət Prossesual Məcəlləyə əsasən "Elektron məhkəmə" informasiya sistemi vasitəsi ilə Cinayət mühakimə icraatının elektron qaydada aparılması nəzərdə tutulmuşdur.

**5.5. İnsan alveri cinayəti üzrə sanksiyaların effektiv və mütənasib olması üçün hansı sanksiyalar tətbiq edilir?**

**Cavab -** İnsan alveri cinayətləri törətmiş şəxslər barəsində Ağır Cinayətlər Məhkəmələri tərəfindən yalnız azadlıqdan məhrum etmə cəzaları tətbiq edilir.

## 6. Bitərəfli və rəsmi müraciətlər (Maddə 27)

**6.1. İnsan alveri qurbanının cinayət prosedurundakı mövqeyi nədən ibarətdir? Canilərə qarşı cinayət prosedurları zamanı insan alveri qurbanlarının, o cümlədən, uşaqlarının hüquqlarının və mənafeyinin müdafiə olunması üçün hansı tədbirlər görülür? İnsan alveri qurbanlarına məhkəmədə kömək etmək səlahiyyəti kimə məxsusdur? Cinayət prosedurlarında insan alveri qurbanları qeyri-hökumət təşkilatları tərəfindən təmsil oluna bilərmi?**

**Cavab -** İnsan alveri qurbanları insan alverin cinayətindən zərər çəkən şəxs olduğu üçün cinayət prosesinin iştirakçısı sayılmaqla ittiham tərəfi mövqeyindən çıxış edir. Cinayət prosdurları zamanı İnsan Alverinə qarşı Mübarizə Baş İdarəsi ilə müqavilə əsasında fəaliyyət göstərən vəkil tərəfindən insan alveri qurbanlarına, o cümlədən uşaqların hüquq və mənafeləri müdafiə olunur. Cinayət prosesi zamanı insan alverinin qurbanları, o cümlədən uşaq qurbanlar zərər çəkmiş şəxs qismində bütün prosesual hüquqlarından istifadə edir. Eyni zamanda ittiham tərəfinə aid olan təhqiqatçı, müstəntiq, prokuror (dövlət ittihamçısı) insan alveri qurbanlarının və uşaq qurbanların mənafelərini müdafiə edir. İnsan alveri qurbanları qeyri-hökumət təşkilatları tərəfindən təmsil olunmur, lakin insan alverinin qarşısının alınması sahəsində fəaliyyət göstərən qeyri-hökumət təşkilatları insan alverinin potensial qurbanlarının maarifləndirilməsi işlərinə, insan alveri qurbanları üçün xüsusi müəssisələrin fəaliyyətinin təşkil edilməsinə, insan alveri qurbanlarına hüquqi yardımın göstərilməsinə və onların sosial reabilitasiyasına cəlb edilirlər.

**6.2. Əgər dövlət oprqanları insan alverində şübhəli bilinən halların təhqiq edilməsi ilə əlaqədar öz öhdəliklərini yerinə yetirməzlərsə, bu halda insan alveri qurbanları və onların ailələri üçün hansı bərpaedici tədbirlər nəzərdə tutulur? İnsan alveri qurbanları, o cümlədən uşaqlar Ombudsman institutlarına və digər milli insan hüquqları təşkilatlarına müraciət etmək üçün şikayət mexanizmlərindən nə dərəcədə yararlana bilərlər?**

**Cavab -** İnsan alveri qurbanları və onların nümayəndələri təhqiqatçının, müstəntiqin, prokurorun və ya məhkəmənin qərarlarından və hərəkətlərindən, o cümlədən hökmdən və məhkəmənin digər qərarlarından *apellyasiya, kassasiya və ya əlavə kassasiya* şikayəti vermək hüququna çalikdirlər. Zərər çəkmiş şəxs şəxsən və ya nümayəndəsi vasitəsilə öz hüquqlarından istifadə edir və vəzifələrini yerinə yetirir. Yetkinlik yaşına çatmamış və ya fəaliyyət qabiliyyəti olmayan zərər çəkmiş şəxsin hüquqlarını onun əvəzinə qanunvercilikIə nəzərdə tutulmuş qaydada qanuni nümayəndəsi həyata keçirir.

Müvəkkil Azərbaycan Respublikası vətəndaşlarının, əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin, hüquqi şəxslərin (bundan sonra "ərizəçi" adlandırılacaq) insan hüquqlarının pozulmasına dair şikayətlərinə baxır.

Şikayəti insan hüquqları pozulmuş şəxsin razılığı ilə üçüncü şəxslər, o cümlədən qeyri-hökumət təşkilatları verə bilərlər. İnsan hüquqları pozulmuş şəxsin razılığını almaq mümkün olmadıqda (həmin şəxs vəfat etdikdə, fəaliyyət qabiliyyətini itirdikdə və s.), şikayəti üçüncü şəxslər və ya qeyri-hökumət təşkilatları razılıq almadan da verə bilərlər.

Cəzaçəkmə müəssisələrində, istintaq təcridxanalarında, müvəqqəti saxlanılma yerlərində saxlanılan şəxslər tərəfindən ünvanlanmış şikayətlər senzuradan keçirilmədən 24 saat müddətində Müvəkkilə göndərilməlidir.

İnsan hüquqları üzrə Müvəkkil (Ombudsman) tərəfindən insan alveri ilə bağlı müraciətlərə baxılma qaydaları, bu cinayətlərin indikatorları, cəza-icra prinsiplərinin hüquqi aspektləri, bu sahədə ölkədaxili qanunvericiliyin və ölkəmizin tərəfdar çıxdığı beynəlxalq sənədlərin tələblərinə uyğun hesabatların hazırlanması, təqdim edilməsi və təhlili metodikası, habelə "Azərbaycan Respublikasında insan alverinə qarşı mübarizəyə dair 2020-2024-cü illər üçün Milli Fəaliyyət Planı" üzrə hüquq-mühafizə mexanizmlərinin səmərəli fəaliyyətinin təmin edilməsi mövzularında interaktiv məlumatlandırma aparılır. Müraciətlər üçün Ombudsmanın "916" Çağrı Mərkəzi fəaliyyət göstərir. Bundan başqa Müvəkkilin rəhbərliyi altında Aparatın əməkdaşları tərəfindən mütəmadi olaraq Dövlət Miqrasiya Xidmətinin Bakı və Yevlax şəhərində yerləşən Qanunsuz Miqrantların Saxlama Mərkəzlərində, o cümlədən Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki sığınacaq və reabilitasiya müəssisələrində, Təhsil Nazirliyinin tabeliyindəki internat tipli məktəblərdə, habelə açıq və qapalı tipli xüsusi təlim tərbiyə müəssisələrində monitorinqlər həyata keçirilir. Monitorinqlər zamanı orada saxlanılan şəxslərlə təkbətək söhbətlər aparılır, müraciətləri dinlənilir, Müvəkkilin səlahiyyəti çərçivəsində mümkün köməklik göstərilir. Baş çəkmələr zamanı onlara insan alverinin qurbanını gözləyən təhlükə, müdafiə üsulları, insan alverinə qarşı həyata keçirilən inzibati, cinayət və digər tədbirlər barədə məlumatlar verilir.

**6.3. Müvəqqəti mühacirət vəziyyətində və / ya həbs şəraitində olan insan alveri qurbanları üçün hesabat və şikayət mexanizmləri hansılardır?**

**Cavab -** Bax 3.4-cü yarımbəndin cavabına.

Azərbaycan Respublikası vətəndaşlarının dövlət və bələdiyyə orqanlarına, dövlət və ya bələdiyyə mülkiyyətində olan və ya paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə və ya bələdiyyəyə məxsus olan hüquqi şəxslərə və büdcə təşkilatlarına və ya onların vəzifəli şəxslərinə şəxsən və ya nümayəndə vasitəsilə yazılı və ya şifahi formada, fərdi və ya kollektiv şəkildə müraciət etmək hüququ vardır. İrqinə, milliyyətinə, dininə, dilinə, cinsinə, mənşəyinə, əmlak vəziyyətinə, qulluq mövqeyinə, əqidəsinə, siyasi partiyalara, həmkarlar ittifaqlarına və digər ictimai birliklərə mənsubiyyətinə görə şəxsin müraciət etmək hüququnu məhdudlaşdırmaq qadağandır. Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdə başqa qayda nəzərdə tutulmayıbsa, bu Qanunun müddəaları əcnəbilərin, vətəndaşlığı olmayan şəxslərin və xarici hüquqi şəxslərin müraciətlərinə şamil edilir.Azərbaycan Respublikasının Konstitusiya qanunlarında, başqa qanunlarda, onların əsasında qəbul edilmiş digər normativ hüquqi aktlarda, habelə Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdə başqa qayda nəzərdə tutulmayıbsa, bu Qanunun müddəaları vətəndaşların bütün müraciətlərinə şamil edilir. Bu Qanunun müddəaları vətəndaşların məhkəmə icraatı və ya inzibati icraat çərçivəsində etdikləri müraciətlərə şamil edilmir. Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkilinə (ombudsmana) insan hüquqlarının pozulmasına dair şikayətlərin verilməsi və bu şikayətlərə baxılması qaydası “Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (ombudsman) haqqında” Azərbaycan Respublikasının Konstitusiya Qanunu ilə tənzimlənir. Cinayət xarakterli şikayətlərə isə Cinayət-Prossesual Məcəllənin tələbləri rəhbər tutulmaqla baxılır.

**6.4 İnsan alveri qurbanları i) insan alverinə birbaşa cəlb olunma hallarına; ii) insan alverinin qarşısının alınmamasına və ya onların insan alverindən mühafizə olunmamasına görə dövlət orqanlarına və ya onların məmurlarına qarşı iddia irəli sürə bilərmi? Dövlət agentlərinin və ya dövlətin adından, yaxud dövlət orqanlarının göstərişi ilə çıxış edən şəxslərin insan alveri ilə məşğul olması və / və ya insan alverinin qarşısını almamağa və ya insan alveri qurbanlarını insan alveri ilə məşğul olan üçüncü tərəflərin əməllərindən mühafizə etməməyə görə məsuliyyət daşıması halları olubmu? İnsan alveri hallarına cəlb olunmuş diplomatik və ya konsulluq heyətinə qarşı aparılan təhqiqatlar haqqında məlumat verilməsi xahiş olunur.**

**Cavab -** İnsan alverinin qarşısının alınmaması və ya onların mühafizəsinin təşkil edilməməsinə görə qurbanların aidiyyəti orqanların daha yuxarı şəxslərinə, prokurorluq və məhkəmə orqanlarına şikayət vermək hüquqları vardır.

Dövlət orqanlarının əməkdaşları tərəfindən şəxslərin istismara cəlb edilməsi halları, insan alveri cinayətinin törədilməsində iştirakı və ya qurbanların hüquq və mənafelərinin müdafiəsi sahəsində hərəkətsizlikləri qeydə alınmamışdır.

**6.5. İnsan alveri hallarının effektiv surətdə təhqiqi üçün dövlət ittihamçılarının bilik və bacarıqlarının təkmilləşdirilməsi və tətbiqi məqsədi ilə hansı tədbirlər görülür?**

**Cavab -** Bax 3.6-cı yarımbəndin cavabına

## 7. Cəzalandırmama haqqında müddəa (Maddə 26)

**7.1. İnsan alveri qurbanlarının, o cümlədən uşaqların qanunsuz əməllərə (cinayət, mülki, inzibati pozuntulara) cəlb olunmağa görə cəzalandırılmadığına görə hansı tədbirlərin görüldüyünü qeyd edin və onların icrasına dair konkret nümunələr göstərin.**

**Cavab -** "İnsan alverinə qarşı mübarizə haqqında" Qanunun 17.7-ci maddəsinə əsasən insan alverindən zərər çəkmiş şəxslər bilavasitə insan alverinin qurbanı vəziyyətində olmasının nəticəsində məcburetmə və ya təhdid altında törətdikləri əməllərə görə Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydada və hallarda mülki, inzibati və cinayət məsuliyyətindən azad edilirlər.

Cinayət təqibi orqanı tərəfindən aparılan istintaq zamanı zor tətbiq etməklə zor tətbiq edəcəyi hədəsi altında, hədə qorxu və digər təsir etmə halları nəticəsində istismar müddətində insan alveri qurbanı tərəfindən 3-cü şəxsin insan alveri məqsədi ilə cəlb edilməsi, daşınması, saxlanılması və verilməsi, bunun nəticəsində 3-cü şəxsə maddi və mənəvi ziyanın verilməsi faktları aşkar edilmiş, qanununun qeyd olunan maddəsi tətbiq edilməklə insan alveri qurbanı cinayət və mülki məsuliyyətdən azad edilmişdir. 2018-2020-ci illər ərzində istintaq orqanı tərəfindən 7 belə hal üzrə məsuliyyətdən azad edilmə həyata keçirilmişdir.

**7.2. İnsan alverinin gedişində və ya nəticəsində yerli qanunları pozmuş insan alveri qurbanları müavinət, o cümlədən Dövlət kompensasiyası almaq üçün müraciət edə bilərmi?**

**Cavab -** İnsan alveri qurbanları onlar üçün nəzərdə tutulmuş bütün hüquqlardan istifadə edə bilər.

## 8. İnsan alveri qurbanlarının və şahidlərin mühafizə olunması (28-ci və 30-cu maddələr)

**8.1. İnsan alveri qurbanları hüquqi prosedurlardan əvvəl, hüquqi prosedurların gedişində və hüquqi prosedurlardan sonra potensial qisas və ya qorxutma hallarından necə qorunur? Tətbiq olunan mühafizə tələbatı necə qiymətləndirilir və mühafizə tədbirlərinin tətbiqini kim tövsiyə edir? Mühafizə tədbirlərinin tətbiqinə kim cavabdehdir?**

**Cavab -** "İnsan alverinə qarşı mübarizə haqqında" Qanunun 4.0.2-ci maddəsinə əsasən insan alveri qurbanlarının təhlükəsizliyinin təmin edilməsi insan alverinə qarşı mübarizənin əsas prinsiplərindən biridir.

Qanunun 12-ci maddəsinə əsasən insan alveri qurbanlarının müdafiəsi, müvəqqəti yaşaması üçün sığınacaqlar və qurbanlara yardım mərkəzləri yaradılır.

Həmçinin Qanunun 14-1-ci maddəsinə əsasən insan alverinin qurbanına öz vəziyyətini bərpa etmək, cinayətkarların təsirindən yayınmaq və cinayət təqibi orqanları ilə əməkdaşlıq etmək barədə düşünülmüş qərar qəbul etmək üçün 30 gün bərpa və fikirləşmə müddəti verilir. Bərpa və fikirləşmə müddətində insan alverinin qurbanı təhlükəsizlik və müdafiə ehtiyaclarının təmin edilməsi, fiziki, psixoloji və sosial vəziyyətinin bərpası üçün xüsusi müəssisələrin xidmətlərindən istifadə edə bilər.

Qeyd olunmalıdır ki, "İnsan alverinə qarşı mübarizə haqqında" Qanun (maddə 20), İnzibati Xətalar (maddə 29) və Miqrasiya (maddə 79) məcəllələrinə uyğun olaraq insan alverindən zərər çəkmiş hesab olunan əcnəbilər və vətəndaşlığı olmayan şəxslər barəsində 1 il müddətində, cinayət təqibi orqanlarına yardım göstərən əcnəbilər və vətəndaşlığı olmayan şəxslər barəsində isə cinayət təqibi başa çatanadək kənara çıxarma haqqında qərar qəbul edilmir. İnsan alverinin qurbanı olan uşaqlar barəsində kənara çıxarma haqqında qərar qəbul edilmir.

Bundan başqa Qanunun 18-ci maddəsinə görə insan alverindən zərər çəkmiş şəxslərin təhlükəsizliyinin təmin edilməsi "Cinayət prosesində iştirak edən şəxslərin dövlət müdafiəsi haqqında" Qanuna uyğun həyata keçirilir. Cinayət prosesini həyata keçirən orqanın əməkdaşı təhlükəsizliyin təmin edilməsi imkanları və tətbiq edilən müdafiə tədbirləri barədə insan alverindən zərər çəkmiş şəxsi xəbərdar etməlidir. İnsan alverindən zərər çəkmiş şəxslər barəsində tətbiq olunan təhlükəsizlik tədbirləri insan alveri ilə bağlı cinayətlərə dair ibtidai araşdırma, məhkəmə baxışı, habelə məhkəmənin yekun qərarı çıxarıldıqdan sonrakı dövr də daxil olmaqla, təhlükə tam aradan qalxanadək davam etdirilir. İnsan alverindən zərər çəkmiş şəxslərin şəxsiyyətinin anonimliyinin təmin edilməsi məqsədilə uydurma adlardan istifadə edilə bilər.

Qanunun 17-ci maddəsinə əsasən insan alveri qurbanlarının şəxsi və ailə həyatının sirri olan məlumatların yayılması Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq məsuliyyətə səbəb olur. İnsan alverindən zərər çəkmiş şəxsin, onun yaxın qohumlarının, habelə insan alverinə qarşı mübarizəyə yardım göstərən şəxslərin həyat və sağlamlığına təhlükə yarada bilən məlumat konfidensial hesab edilir və onun yayılması qadağandır. İnsan alverindən zərər çəkmiş şəxs haqqında konfidensial məlumatları və ya onun barəsində tətbiq edilən təhlükəsizlik tədbirləri haqqında məlumatları qanunsuz olaraq toplama, yaxud bu məlumatları qəsdən yayma qanunvericiliklə müəyyən edilmiş məsuliyyətə səbəb olur.

Belə ki, Cinayət Məcəlləsinin 316-1-ci maddəsində insan alverindən zərərçəkmiş şəxs haqqında konfidensial məlumatları yaymağa görə məsuliyyət müəyyən edilmişdir.

Eyni zamanda "İnsan alverinə qarşı mübarizə haqqında" Qanunun 24-cü maddəsinə əsasən insan alveri ilə bağlı cinayət işlərinə, habelə insan alveri nəticəsində dəyən ziyanın

ödənilməsi üzrə işlərə insan alveri qurbanının müraciəti əsasında Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq məhkəmənin qərarı ilə qapalı məhkəmə iclasında baxıla bilər. İnsan alveri qurbanlarının təhlükəsizliyinin təmin edilməsi, insan alverçiləri tərəfindən onlara təsir göstərilməsinin qarşısının alınması məqsədilə, habelə insan alveri qurbanlarının fiziki və psixoloji vəziyyəti nəzərə alınaraq məhkəmə baxışı zamanı insan alveri qurbanlarına texniki vasitələrdən (telekörpü, videoyazı və s.) istifadə etməklə ifadə vermək imkanı yaradıla bilər.

Təhlükəsizliyi təmin edən orqanlar aşağıdakılardır:

1) təhlükəsizlik tədbirlərinin tətbiq edilməsi haqqında qərar qəbul etmiş orqanlar;

2) bu qərar əsasında təhlükəsizlik tədbirlərini həyata keçirən orqanlar.

Müdafiə olunan şəxslər barəsində təhlükəsizlik tədbirlərinin tətbiq edilməsi haqqında qərar Azərbaycan Respublikasının cinayət-prosessual qanunvericiliyi ilə müəyyən edilmiş qaydada cinayət prosesini həyata keçirən orqan tərəfindən qəbul edilir. Bu qərarla müdafiə olunan şəxs barəsində təhlükəsizlik tədbirlərinin həyata keçirilməsi öz səlahiyyəti hüdudlarında Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi və Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidməti tərəfindən həyata keçirilir.

Cinayət işi üzrə istintaq və ya məhkəmə icraatına kömək etmələri ilə bağlı müdafiə olunan şəxslər barəsində öldürməklə hədənin icra ediləcəyi, zor tətbiq ediləcəyi, həmin şəxslərin əmlakının məhv ediləcəyi və ya ona ziyan vurulacağı qorxusunun mövcudluğu barədə təhlükəsizliyi təmin edən orqanlar tərəfindən müəyyən edilmiş real məlumatlar təhlükəsizlik tədbirlərinin tətbiqi üçün əsasdır.

Təhlükəsizlik tədbirlərinin tətbiq edilməsi və onların tətbiqinin nəticələri haqqında bu tədbirləri həyata keçirən orqan cinayət prosesini həyata keçirən orqana məlumat verir, müdafiə olunan şəxslərin təhlükəsizliyinə qorxu yaradan hallar aradan qaldırıldıqda isə təhlükəsizlik tədbirlərinin ləğvi barədə vəsatət qaldırır.

**8.2 İnsan alveri qurbanlarının işin gedişi, caninin həbs olunması və ya azadlığa buraxılması haqqında real məlumat alması necə təmin olunur?**

**Cavab -** Cinayət prosesində iştirak edən şəxslərin onların müdafiəsi üçün təhlükəsizlik tədbirlərinin görülməsi barədə vəsatətlərinə və xahişlərinə cinayət prosesini həyata keçirən orqan təxirə salınmadan, lakin bu vəsatətləri aldıqdan sonra 72 saatdan gec olmayaraq baxmalıdır. Vəsatətə və ya xahişə baxılması nəticəsi ərizəçiyə dərhal bildirilməli və ona cinayət prosesini həyata keçirən orqan Tərəfindən müvafiq qərarın surəti göndərilməlidir.

Ərizəçi onun müdafiəsi üçün təhlükəsizlik tədbirlərinin görülməsi barədə vəsatətin və ya xahişin rədd edilməsinə dair qərarın surətini aldıqdan sonra beş gün müddətində məhkəməyə şikayət etməyə, yaxud vəsatətin və ya xahişin verildiyi andan yeddi gün müddətində cinayət prosesini həyata keçirən orqanın müvafiq qərarının surətini almadıqda təhlükəsizlik tədbirlərinin görülməsi üçün məhkəməyə müraciət etməyə haqlıdır.

**8.3. Məhkəmə prosedurları zamanı insan alveri qurbanlarının təhlükəsizlik, şəxsi həyat və məxfilik hüquqlarının qorunması necə təmin olunur?**

**Cavab -** Bax 8.1 və 8.2-ci yarımbəndin cavabına.

**8.4. İnsan alveri qurbanlarının və şahidlərinin, o cümlədən uşaqların mühafizə olunması üçün tədbirlər neçə dəfə icra olunub? Əgər insan alveri qurbanlarına münasibətdə şahidlərin mühafizəsi tədbirləri / proqramları icra olunmayıbsa, bunun səbəbi nədir?**

**Cavab -** 2017-2021-ci il tarixlərdə yalnız bir halda (2019-cu ildə) insan alveri cinayətindən zərər çəkən şəxsin barəsində təhlükəsizlik tədbirlərinin tətbiq edilməsi haqqında istintaq orqanı tərəfindən qərar qəbul edilmişdir. İnsan alveri qurbanlarının təhlükəsiz sığınacaqda yerləşdirilməsi, insan alveriçiləri barəsində həbs qətimkan tədbirinin seçilməsi, qurbanların insan alverçilərin kənarda yaşamaları, qarşılaşmamaları onların qurbanlara təsir imkanlarını minumuma endirmiş, bu səbəbdən təhlükəsizlik tədbirlərinin tətbiqi barədə qərarların qəbul edilməsinə əksər hallarda lüzum olmamışdır.

**8.5 İnsan alveri qurbanları qeyri-hökumət təşkilatları tərəfindən mühafizə olunduqda, qeyri-hökumət təşkilatları bu funksiyanı icra etmək üçün necə maliyyələşdirilir və dəstəklənir? Polis və prokurorluq qeyri-hökumət təşkilatları ilə necə əməkdaşlıq edirlər?**

**Cavab -** İnsan alveri qurbanları qeyri-hökumət təşkilatları tərəfindən mühafizə olunmur, onlar DİN-in İnsan Alverinə qarşı Mübarizə Baş İdarəsinə bilavasitə tabe olan insan alveri qurbanları üçün təhlükəsiz sığınacağa yerləşdirilir və onların mühafizə edilməsi İnsan alveri qurbanları üçün sığınacağın mühafizəsi üzrə polis manqası tərəfindən həyata keçirilir.

**8.6. İnsan alverinin azyaşlı qurbanlarına qarşı uşaqlara xas davranılması, eləcə də hüquqi prosedurlardan əvvəl, hüquqi prosedurların gedişində və hüquqi prosedurlardan sonra onların Uşaqlara Qarşı Ədalət haqqında Avropa Şurasının Təlimatlarına müvafiq qaydada mühafizə edilməsi necə təmin olunur? Uşaqlarla aparılan müsahibələr xüsusi təyin olunmuş və uyğunlaşdırılmış yerlərdə, uşaqlarla işləmək üçün ixtisaslaşmış mütəxəssislər tərəfindən aparılırmı?**

**Cavab -** Uşaqların təhlükəsizliyinin təmin edilməsi məqsədilə onlar sığınacağa yerləşdirilir. “Uşaqların sığınacaqda yerləşdirilməsi və saxlanılması könüllülük, konfidensiallıq, fərdi yanaşma, qurbanların mənafelərinin müdafiəsi, təhlükəsizliyin təmin edilməsi, bərabərlik, qurbanlara hörmət, təxirəsalınmaz yardım, yardımların pulsuz göstərilməsi prinsipləri əsasında həyata keçirilir.

Uşağa yardım göstərilərkən onun mənafeləri üstün tutulmalı, "Uşaq hüquqları haqqında" Azərbaycan Respublikasının Qanununa, "Uşaq hüquqları haqqında" BMT-nin Konvensiyasına,

habelə Azərbaycan Respublikasının digər qanunlarına və tərəfdar çıxdığı beynəlxalq müqavilələrə uyğun olaraq, uşağın hüquqlarının və qanuni maraqlarının qorunması üçün bütün tədbirlər görülür.

Sığınacaq daxilində nəzərdə tutulmuş bütün xidmət və tədbirlər ilkin olaraq uşaqların maraq və ehtiyaclarına uyğunlaşdırılır.

Kimliyindən asılı olmayaraq, sığınacağa yerləşdirilmiş bütün uşaqlara münasibətdə heç bir ayrı-seçkiliyə yol verilmir.

Sığınacağa yerləşdirilmiş uşağın yaşı, kamillik səviyyəsi nəzərə alınmaqla, onların vəziyyəti, hüquqları, göstəriləcək xidmətlərə dair məlumatlar uşaqların dərk edəcəyi formada verilir.

Sığınacağa yerləşdirilmiş hər bir uşağa və onun valideynlərinə dair məlumatlar Azərbaycan Respublikasının qanunvericiliyində nəzərdə tutulmuş qaydada konfidensial saxlanılır.

Uşaq sığınacaqda yerləşdirilərkən onun hüquq və mənafelərini müdafiə edən şəxsin iştirakı təmin edilir.

Uşaqların müdafiəsini təmin etmək məqsədi ilə onlar müvəqqəti yaşamaq üçün yaradılmış sığınacaqda yerləşdirilirlər.

Sığınacağın rəhbəri uşaq barədə təxirəsalınmaz tədbirlərin görülməsi məqsədi ilə sığınacağın yerləşdiyi ərazinin qəyyumluq və himayə orqanına, Yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə komissiyaya və Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinə dərhal məlumat verir.

Şəxs sığınacağa qəbul edilərkən onun yaşını dəqiq müəyyən etmək mümkün olmadıqda, lakin həmin şəxsin 18 yaşına çatmadığı ehtimal edildikdə, o, uşaq hesab edilir.

Sığınacaqlarda uşaqlar bir qayda olaraq, ayrıca yerləşdirilirlər. Uşağın mənafeyi nəzərə alınaraq, o, valideynləri (uşağın insan alverinin qurbanı olmasına valideynlərinin səbəb olması güman edilən hallar istisna olmaqla) və ya uşağın psixoloji durumuna müsbət təsir göstərən digər şəxslərlə birlikdə yerləşdirilə bilər.

Uşaqların sığınacaqda qalma müddəti 60 gündür. Aşağıdakı hallarda sığınacaq verilmə müddəti xüsusi polis qurumunun, qəyyumluq və himayə orqanının və Yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə komissiyanın vəsatəti ilə uzadıla bilər:

- uşağın həyatı üçün təhlükə aradan qaldırılmadıqda;
- uşağın valideynlərinin axtarılması, yaxud barəsində qəyyumluq və ya himayənin müəyyən edilməsi üzrə tədbirlər tamamlanmadıqda;
- uşağın fərdi proqram üzrə reabilitasiyası başa çatmadıqda;
- cinayət təqibini həyata keçirən orqan tərəfindən uşağın əlavə olaraq dindirilməsinə ehtiyac olduqda;
- uşağın mənafeləri onun sığınacaqda qalmasını tələb edən digər hallarda.

Sığınacaqda qalma müddətinin uzadılmasına dair vəsatət həmin müddətin bitməsinə 10 gün qalmış verilir. Sığınacağın müdiriyyəti vəsatətin verildiyi gündən 3 gün müddətində sığınacaq verilmə müddətinin uzadılmasına dair qərar qəbul edir.

Uşaqlar sığınacağa yerləşdirilərkən və burada saxlama müddəti uzadılarkən 10 yaşından böyük uşaqların məsələyə dair münasibəti öyrənilir və nəzərə alınır.

Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, qəyyumluq və himayə orqanı və Yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə komissiya sığınacaqda yerləşdirilmiş uşağın hüquq və mənafelərinin Azərbaycan Respublikasının qanunvericiliyinə və tərəfdar çıxdığı beynəlxalq konvensiyalara və müqavilələrə uyğun olaraq qorunmasının təmin edilməsi üçün öz səlahiyyətləri çərçivəsində müvafiq tədbirlər görürlər.

Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi:

- uşağın sığınacaqda yerləşdirilməsi və saxlanılmasının qanunvericiliyin tələblərinə uyğun həyata keçirilməsi ilə bağlı müvafiq qurumlar qarşısında vəsatət qaldırır və təkliflər verir;
- uşağın fərdi sosial reabilitasiya planının həyata keçirilməsi ilə tanış olur, məsələyə dair təkliflər verir;
- uşağın valideynləri (uşağın insan alverinin qurbanı olmasına valideynlərinin səbəb olması güman edilən hallar istisna olmaqla) ilə reabilitasiya işləri aparır və onlara müvafiq yardım göstərilməsi ilə bağlı müvafiq orqanlar qarşısında vəsatət qaldırır;
- sığınacağı tərk edən uşağın gələcək həyat tərzinin müəyyən edilməsi ilə bağlı aidiyyəti orqanlarla əməkdaşlıq çərçivəsində müvafiq tədbirlər görür;
- qanunvericilikdən irəli gələn digər məsələləri həll edir.

Qəyyumluq və himayə orqanı:

- uşağın sorğu edilməsində və dindirilməsində nümayəndəsinin iştirakını təmin edir;
- tələb olunduqda, uşaq üzərində qəyyumluq və ya himayə müəyyən edir;
- uşağa sığınacaq verilməsi müddətinin uzadılmasına dair vəsatət qaldırır;
- qanunvericilikdən irəli gələn digər məsələləri həll edir.

Yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə komissiya:

- insan alverinin qurbanı olmuş uşağın fərdi sosial reabilitasiya planının həyata keçirilməsinə nəzarət edir ;
- uşağın saxlanılması şəraiti ilə tanış olur;
- uşağın hüquqlarını pozan şəxslərin məsuliyyətə cəlb edilməsi üçün müvafiq dövlət orqanına müraciət edir;
- uşağa sığınacaq verilməsi müddətinin uzadılmasına dair vəsatət qaldırır;
- qanunvericilikdən irəli gələn digər məsələləri həll edir.

Sığınacağa yerləşdirilən uşaqlara zəruri tibbi, psixoloji, hüquqi, sosial yardımlar göstərilir, onlara təhsillərini davam etdirmək imkanı yaradılır.

Sığınacaqda uşaqların şəxsiyyətinin anonimliyi təmin edilir.

Sığınacaqda yerləşdirilmiş uşaqlara onların hüquq və mənafelərini müdafiə edən şəxslərlə (həmin şəxsin uşağın insan alverinin qurbanı olmasına səbəb olması güman edilən hallar istisna olmaqla) əlaqə və ünsiyyət saxlamaq imkanı yaradılır.

Sığınacaqda yerləşdirilən uşaqlara yardım göstərilərkən onların yaşı, cinsi və tələbatları nəzərə alınır və hər bir uşaq barəsində sosial reabilitasiya proqramı hazırlanır.

Sığınacaqda uşaqlara telefonla danışmaq və tərcüməçinin imkanlarından istifadə etmək imkanı verilir.

Sığınacaqda yerləşdirilmiş uşaqların təhlükəsizliyi qanunvericiliyə müvafiq şəkildə təmin edilir.

Sığınacağın rəhbəri sığınacaqda qalma müddəti bitmiş uşağın yerləşdirilməsi üçün həmin müddətin bitməsinə 10 gün qalmış Daxili İşlər Nazirliyini, uşağın hüquq və mənafelərini müdafiə edən orqanları və şəxsləri bu barədə məlumatlandırır.

Sığınacaqda qalma müddəti bitmiş uşağın yerləşdirilməsi, onun hüquq və mənafelərinin müdafiəsi, habelə ehtiyaclarının təmin edilməsi üzrə aidiyyəti dövlət orqanlarının vəzifələri müvafiq qanunvericiliklə müəyyən edilir.

## 9. İxtisaslaşmış şəxslər və koordinasiya orqanları (Maddə 29)

**9.1. İnsan alveri ilə mübarizə və insan alveri hallarının təhqiq olunması üzrə ixtisaslaşmış hüquq-mühafizə orqanlarının sərəncamında hansı büdcə, heyət və resurslar, o cümlədən texniki vasitələr var?**

**Cavab -** Milli Fəaliyyət Planında göstərilən vəzifələrin səmərəli icrası, insan alveri qurbanlarının təhlükəsizliyinin təmin edilməsi, onlara peşəkar yardım göstərilməsi, insan alverinə qarşı mübarizə sahəsində məlumatların vahid mərkəzdə cəmlənməsi və qorunması, insan alverinə qarşı mübarizənin xüsusi təlim keçmiş peşəkar polis əməkdaşları və lazımi avadanlıqla təchiz edilmiş polis qurumu tərəfindən həyata keçirilməsi məqsədilə xüsusi polis qurumu (DİN-in İnsan Alverinə qarşı Mübarizə Baş İdarəsi) yaradılmışdır.

Xüsusi polis qurumu insan alveri qurbanlarının müəyyən edilməsi və müdafiə edilməsi ilə yanaşı, həmçinin insan alveri ilə bağlı cinayətlər üzrə səlahiyyətləri daxilində əməliyyat-axtarış fəaliyyətini və cinayət təqibini həyata keçirir. İnsan alveri ilə bağlı cinayət işləri üzrə araşdırma aparılarkən toplanan məlumatların qeydə alınması və istifadəsi üçün vahid məlumat bazası yaradılmışdır.

Xüsusi polis qurumunun əməkdaşları xidmətə şəffaflıq əsasında, digər meyarlarla yanaşı şəxsi keyfiyyətlər, peşə hazırlığı, təhsil səviyyəsi və psixoloji dayanıqlıq baxımından insan alverinə qarşı mübarizə üzrə xüsusi polis qurumunda xidmətə yararlı olmaları nəzərə alınmaqla qəbul edilmişlər. Xüsusi polis qurumuna xidmətə qəbul olunmuş əməkdaşlar əsasən aşağıdakı məsələlər üzrə təlim keçirlər:

- insan alveri qurbanlarından və digər mənbələrdən qanunvericiliklə müəyyən edilmiş qaydada məlumatların, sənədlərin və digər əşyaların əldə edilməsi, təhlili və sübut qismində təqdim edilməsi;
- insan alveri qurbanlarının müəyyən edilməsi üsulları;
- müəyyən müşahidə üsullarından və texniki vasitələrdən istifadə edilməsi;

- insan alveri qurbanları ilə davranış qaydaları.

Şəxsin insan alverindən zərər çəkməsi ehtimal edildikdə, yaxud insan alveri ilə bağlı cinayətlərin törədilməsi və ya hazırlanması digər orqanlar tərəfindən aşkar edildikdə, bu barədə xüsusi polis qurumuna dərhal məlumat verilməli, müvafiq sənədlər həmin quruma təqdim edilməli və zəruri kömək göstərilməlidir.

İnsan alverinə qarşı mübarizə aparan hüquq-mühafizə orqanları xüsusi polis qurumu ilə qarşılıqlı əlaqələrin təmin edilməsi məqsədilə əlaqələndirici qismində fəaliyyət göstərən və insan alveri üzrə təlim keçmiş əməkdaşlarını müəyyən edirlər.

İnsan alveri qurbanları ilə bağlı Milli İstiqamətləndirmə Mexanizminin həyata keçirilməsi üçün idarələrarası komissiya yaradılmış, İdarələrarası komissiyanın tərkibi Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin, Azərbaycan Respublikası Təhsil Nazirliyinin, Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin, Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin, Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin, Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin, Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyinin, Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin, Azərbaycan Respublikası Baş Prokurorluğunun, Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidmətinin, Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin, Azərbaycan Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin, Azərbaycan Respublikası Dövlət Turizm Agentliyinin, Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin, Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinin nümayəndələrindən ibarətdir.

Xüsusilə vurğulanmalıdır ki, Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 22 iyul tarixli 2173 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında insan alverinə qarşı mübarizəyə dair 2020–2024-cü illər üçün Milli Fəaliyyət Planı"nın həyata keçirilməsi üzrə Tədbirlər Planı"nın 4.1.9-cu yarımbəndində İnsan alveri qurbanları ilə bağlı Milli İstiqamətləndirmə Mexanizminin daha səmərəli həyata keçirilməsi, insan alverinə qarşı mübarizədə koordinasiyanın gücləndirilməsi məqsədilə müvafiq idarələrarası komissiyanın və İnsan alverinə qarşı mübarizə üzrə Milli Koordinator yanında İşçi Qrupun hüquqi statusuna yenidən baxılması, ixtisaslaşmış qeyri-hökumət təşkilatları və beynəlxalq təşkilatlar cəlb edilməklə tərkibinin yenidən formalaşdırılması nəzərdə tutulmuşdur.

Bununla əlaqədar yeni qanunvericilik layihələri hazırlanmış və Hökumətə təqdim edilmişdir.

**9.2. Əgər Sizin ölkənizdə maliyyə tədqiqatları, aktivlər və onların bərpası ilə məşğul olan orqanlar varsa, insan alveri hallarının təhqiqində həmin orqanların cəlb olunub-olunmadığını və hansı qaydada cəlb olunduğunu göstərin. Həmin orqanlar hansı təhqiqat texnikalarından istifadə edirlər? İnsan alveri ilə mübarizə sahəsində həmin ixtisaslaşmış maliyyə təhqiqatı orqanları hansı dövlət və / və ya özəl təşkilatlarla əməkdaşlıq edirlər?**

**Cavab -** "Azərbaycan Respublikasında insan alverinə qarşı mübarizəyə dair 2020-2024-cü illər üçün Milli Fəaliyyət Planı"na əsasən İnsan alveri və məcburi əmək

cinayətlərinin ibtidai araşdırılması çərçivəsində bu cinayətlərdən əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın da aşkar edilməsi üçün tədbirlər görülməsi, onların leqallaşdırılmasının qarşısının alınması tədbiri nəzərdə tutulmuş. Həmin tədbirin icrasına Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi, Dövlət Təhlükəsizliyi və Maliyyə Monitorinq xidmətləri cəlb edilmişdir.

Maliyyə Monitorinq Xidməti maliyyə orqanı olaraq müxtəlif mənbələdən əldə etdiyi məlumatlar əsasında taktiki və strateji təhlil metodları tətbiq etməklə insan alveri də daxil olmaqla müxtəlif predikativ cinayətlərin maliyyə araşdırmasını həyata keçirir. Maliyyə Monitorinq Xidməti tərəfindən maliyyə araşdırması ilkin mərhələ olaraq cinayət işi başlamamışdan əvvəl preventiv tədbir kimi və ya cinayət işi başlanıldıqdan sonra hüquq mühafizə orqanının sorğusu əsasında həyata keçirilə bilər. Maliyyə Monitorinq Xidməti maliyyə araşdırmasını həyata keçirmək üçün dövlətin təmin etdiyi məlumat bazalarından istifadə etmək və monitorinq iştirakçıları və monitorinqdə iştirak edən şəxslərdən maliyyə əməliyyatlarına dair məlumatlar əldə etmək hüququna malikdir.

2018-2021-ci illər ərzində insan alveri cinayətləri üzrə aşağıdakı səbəblərdən maliyyə istintaqı aparılmamışdır.

- Cinayət təqibi zamanı müəyyən olunur ki, müstəqil şəkildə fəaliyyət göstərən insan alverçiləri cinayəti törədən zamanı nəqd hesablaşmalardan istifadə etmiş, hər hansı bank köçürmələrini həyata keçirməmişlər.
- İnsan alverçisi tərəfindən cinayət törədildiyi müddətdə əldə edilmiş əmlaklarla bağlı edilmiş sorğular nəticəsiz olmuşdur, belə ki, həmin şəxslərin adlarına hər hansı əmlak və ya maliyyə əməliyyatı qeydə alınmamışdır.

## 10. Beynəlxalq əməkdaşlıq (Maddə 32)

**10.1. İnsan alveri qurbanlarının hüquqlarının bərpası və onlara kompensasiya ödənilməsi, eləcə də onların zorakılığa məruz qaldığı ölkəni tərk etməsindən sonra müavinətlərin ödənilməsinə yardım göstərilməsi sahəsində Sizin ölkəniz digər ölkələrlə necə əməkdaşlıq edir?**

**Cavab -** Bax 3.4-cü yarımbəndin cavabına.

**10.2. Sizin ölkəniz maliyyə təhqiqatları və / və ya Birləşmiş Təhqiqat Heyətləri vasitəsi ilə insan alveri hallarının təhqiqatında digər ölkələrlə əməkdaşlıq edirmi? Bu cür halların statistikasının təqdim edilməsi və təcrübədən misallar göstərilməsi xahiş olunur.**

**Cavab -** "Cinayət işlərinə dair hüquqi yardım haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən ölkəmiz cinayət işlərinə digər ölkələrlə sənədlərin, bank və maliyyə sənədləri də daxil olmaqla, orijinallarının və ya müvafiq qaydada təsdiq edilmiş surətlərinin təqdim edilməsi, əmlak barəsində axtarışın həyata keçirilməsi və ya əmlak üzərinə həbs qoyulması,

cinayət yolu ilə əldə edilmiş gəlirlərin, əmlakın, cinayət törədilməsi üçün istifadə olunan vasitələrin müəyyən edilməsi və s. məsələlərlə bağlı digər ölkələrlə əməkdaşlıq edir.

İnsan alveri ilə bağlı maliyyə təhqiqatlarının aparılması halları qeydə alınmamışdır.

**10.3. Siz insan alveri hallarında qarşılıqlı hüquqi yardım haqqında və / və ya Avropa Təhqiqat Sifarişi üzrə neçə dəfə müraciət etmisiniz?**

**Cavab -** Türkiyə Respublikasına insan alveri ilə bağlı **hüquqi yardıma dair** 2017-ci ildə 1, 2018-ci ildə 1, 2019-cu ildə isə 2 sorğu göndərilmiş və həmin sorğular icra olunmuşdur.

Eyni zamanda 2019-cu ildə Pakistan İslam Respublikasına 1 sorğu, 2021-ci il ildə isə Türkiyə Respublikasına 2 sorğu göndərilmiş və hazırda onlara cavab gözlənilir. 2020-ci ildə hər hansı sorğu daxil olmamış və göndərilməmişdir.

İnsan alveri cinayətlərinin törədilməsinə görə 2017-ci ildə Türkiyə Respublikasına ekstradisiya ilə bağlı 1 sorğu, Birləşmiş Ərəb Əmirliklərinə 1 sorğu göndərilmiş və hazırda cavab gözlənilir. 2019-cu ildə Kipr Respublikasından 1, Türkiyə Respublikasından 1 ekstradisiya sorğusu daxil olmuş və hər ikisi təmin olunaraq axtarışda olan şəxslər sorğu edən dövlətlərə təhvil verilmişlər. 2020-ci ildə İran İslam Respublikasına 1 ekstradisiya sorğusu göndərilmiş, lakin həmin dövlətin vətəndaşı olduğundan təslim edilməsindən imtina olunmuşdur. 2021-ci ildə Türkiyə Respublikasına 2 sorğu göndərilmiş və hazırda cavab gözlənilir.

**10.4. İnsan alveri qurbanlarının, o cümlədən uşaqların hüquqlarının bərpası və canilənin cəzalandırılması üçün beynəlxalq əməkdaşlığın hansı formaları xüsusilə faydalı olub?**

**Cavab -** Təyinat ölkəsində istismara məruz qalmış şəxsin Azərbaycan Respublikasına qayıdışının və qayıdış sənədinin təmin edilməsi ilə bağlı müraciətlərin icrası;

- cinayət təqibi üzrə iş üçün əhəmiyyat kəsb edən əlavə sübutların toplanması istiqamətində beynəlxalq istintaq tapşırıqlarının verilməsi və icrası;
- İnsan alveri cinayətlərinə görə axtarılşda olan şəxslərin tutulması, ekstradisiyası;
- İnsan alveri cinayəti törədən cinayətkar qrupun üzvü olan əcnəbi şəxsin mənsub olduğu ölkəyə cinayət işinin tərcümə edilərək göndərilməsi, şəxsin öz ölkəsinin məhkəməsi tərəfindən məhkum edilməsi;
- İnsan alveri qurbanlarının öz ölkəsinə qayıdışının təmin edilməsi (eyni zamanda qayıdış sənədi ilə), repatriasiya olunan insan alveri qurbanının gələcəkdə yenidən insan alveri qurbanına çevrilməsi riskinin müəyyən olunması, insan alveri qurbanlarına öz ölkəsində reabilitasiya və reinteqrasiya tədbirlərinin davam etdirilməsi istiqamətində tədbirərin görülməsi üçün müraciətlərin icrası;

Qeyd olunan istiqamətlərində aparılan beynəlxalq əməkdaşlıq işləri ölkələrin hüquq mühafizə orqanları, Azərbaycanın həmin ölkələrdəki Səfirlikləri, qeyd olunan ölkələrin Azərbaycandakı Səfirlikləri, İNTERPOL-un həmin ölkələrdəki büroları vasitəsilə həyata keçirilir.

Bu istiqamətdə Türkiyə, Pakistan, Ukrayna ilə əməkdaşlıq effektli olmuşdur.

**10.5 İnsan alveri qurbanlarının cinayət prosedurlarından iştirak etdikdən sonra Sizin ölkənizdən öz ölkələrinə qayıdışı zamanı onların təhlükəsizliyinin təmin olunması və zəruri köməklik göstərilməsi üçün hansı beynəlxalq əməkdaşlıq tədbirləri görülür?**

**Cavab -** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2013-cü il 10 sentyabr tarixli Qərarı ilə təsdiq edilmiş "İnsan alveri qurbanlarının repatriasiya Qaydaları"na uyğun olaraq insan alverinə məruz qalmış getmək istədiyi ölkəyə yalnız qeyd olunan hallar araşdırıldıqdan və qiymətləndirmə aparıldıqdan sonra həyata keçirilir:

- qurbanların repatriasiya edilməsindən sonra yenidən insan alverinə məruz qalma ehtimalı;
- qurbanların repatriasiya edilməsindən sonra insan alverçiləri tərəfindən təqiblə üzləşmə təhlükəsi;
- qurbanların repatriasiya ediləcəyi ölkələrin insan alverinin törədilməsində mənşə, tranzit və ya təyinat ölkəsi qismində çıxış etmələri;
- qurbanların repatriasiya ediləcəyi ölkələrdə belə şəxslər üçün reabilitasiya və reinteqrasiya proqramlarının mövcudluğu;
- qurbanların repatriasiya ediləcəyi ölkələrdə onlara zəruri sosial xidmət göstərəcək dövlət və qeyri-dövlət qurumlarının potensial imkanları;
- qurbanların repatriasiya ediləcəyi ölkələrin insan alverinə qarşı mübarizədə qətiyyətli olması və zəruri dəstəyin göstərilə biləcəyi səviyyə;
- risk və təhlükə dərəcəsinin qiymətləndirilməsi üzrə spesifik olan digər göstəricilər.

Repatriasiya olunacaq ölkənin müvafiq dövlət qurumuna edilmiş sorğuların nəticələri ilə əldə edilmiş məlumatlar əsasında qiymətləndirmə həyata keçirilir. Həmin məlumatlar barədə sorğular həmin ölkələrin Azərbaycandakı Səfirlikləri və Azərbaycanın həmin ölkələrdəki Səfirlikləri vasitəsilə əldə edilir və ümumiləşdirlir. Müsbət qiymətləndirmədən sonra insan alveri qurbanları yol bileti ilə təmin edilir və insan alveri qurbanını qəbul edəcək tərəfə getmə vaxtı barədə məlumat verilir və təhlükəsizliyin təmini üçün tədbirlərin görülməsi xahiş olunur.

**10.6. Caninin Sizin ölkənizin vətəndaşı və ya sakini olduğu və cinayət elementlərinin Sizin ölkənizin yurisdiksiyasında baş verdiyi hallarda, cinsi istismar məqsədi ilə onlayn qaydada cəlb olunmuş insan alveri qurbanlarının təhlükəsizliyinin təmin olunması və zəruri köməklik göstərilməsi üçün hansı beynəlxalq əməkdaşlıq tədbirləri görülür?**

**Cavab -** Bax 10.5-ci yarımbəndin cavabına. Real təhlükə barədə insan alverinin qurbanı olan ölkəyə məlumat verilir və qurbanların təhlükəsizliyinin təmin edilməsi ilk növbədə həmin ölkənin müvafiq qurumlarının üzərinə düşür.

## 11. Çarpaz ziddiyyətli suallar

**11.1. İnsan alveri qurbanlarının mühacirət statusundan və zorakılıq növündən asılı olmayaraq, ədalətli və effektiv tədbirlərdən yararlanmaq üçün bərabər hüquqları necə təmin olunur?**

**Cavab -** Bax 2.2-ci yarımbəndin cavabına.

**11.2. İnsan alveri qurbanlarına münasibətdə icra olunan cinayət, mülki, əmək və inzibati prosedurların cinsi mənsubiyyət nəzərə alınmaqla icra edilməsi necə təmin olunur?**

**Cavab -** İnsan alveri qurbanları ilə bağlı Milli İstiqamətləndirmə Mexanizminin əsas məqsədləri qurbanların hüquqlarının qorunmasını və onların aidiyyəti quruma təhvil verilməsini, təhlükəsizliyini, repatriasiyasını, sosial reabilitasiyasını təmin edəcək səmərəli sistemin yaradılması və bu sahədə qaydaların formalaşdırılmasıdır. Müdafiə və sosial reabilitasiya tədbirlərinin tətbiqində qurbanların bərabərliyinin təmin edilməsi Milli İstiqamətləndirmə Mexanizminin əsas prinsiplərindən biridir.

**11.3 Görülən tədbirlərin uşaqlar üçün yararlı, onların nümayəndələri üçün əlverişli olması və uşaqların dünyagörüşünün nəzərə alınması necə təmin olunur?**

**Cavab -** Bax 8.6-cı yarımbəndin cavabına.

**11.4 Özəl təşkilatların öz biznesini və ya təchizat zəncirini insan alverindən qoruduğuna və insan alveri qurbanlarının reabilitasiyasına və hüquqlarının qorunmasına dəstək göstərdiyinə əmin olmaq üçün hansı tədbirlər görülür? İnsan alveri qurbanlarının insan alveri ilə əlaqədar biznesdən qorunması üçün hansı vasitələr var?**

**Cavab -** "Azərbaycan Respublikasında insan alverinə qarşı mübarizəyə dair 2020-2024-cü illər üçün Milli Fəaliyyət Planı"nda istehsal və xidmət sahələrində istehlakçıya qədər olan bütün mərhələlərdə insan alveri və məcburi əmək halları ilə bağlı risklərin öyrənilməsi, aşkarlanması, aradan qaldırılması və aidiyyəti dövlət orqanlarının birgə mübarizə tədbirlərinin həyata keçirilməsinə dair təkliflər hazırlanması nəzərdə tutulmuşdur.

**11.5 Korrupsiyanın insan alveri üçün zəmin yaratdığı və insan alveri qurbanlarının ədalətli və effektiv tədbirlərdən yararlanması imkanlarının məhdudlaşdırıldığı halların aşkarlanması və bu cür halların qarşısının alınması üçün Sizin ölkənizdə hansı hüquqi, siyasi və praktiki tədbirlər görülür? İnsan alveri cinayətində korrupsiya amilinin rol oynadığı, yaxud dövlət rəsmiləri tərəfindən qanunsuz əməllərə yol verildiyi hallar və tətbiq olunan sanksiyalar haqqında məlumat verin.**

**Cavab -** "Korrupsiyaya qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən korrupsiya - vəzifəli şəxslərin öz statusundan, təmsil etdiyi orqanın *(qurumun)* statusundan, vəzifə səlahiyyətlərindən və ya həmin status və səlahiyyətlərdən irəli gələn imkanlardan istifadə etməklə qanunsuz olaraq maddi və sair nemətlər, imtiyazlar və ya güzəştlər əldə etməsi, habelə fiziki və hüquqi şəxslər tərəfindən qeyd edilən maddi və sair nemətlərin, imtiyazların və ya güzəştlərin qanunsuz olaraq vəzifəli şəxslərə təklif və ya vəd olunması və yaxud verilməsi yolu ilə həmin vəzifəli şəxslərin ələ alınmasıdır.
Qanunda korrupsiyanın qarşısının alınması, koorupsiya ilə əlaqədar hüquqpozmalar və bu hüquqpozmalara görə məsuliyyət tədbirləri nəzərdə tutulmuşdur.

Eyni zamanda "İnsan alverinə qarşı Mübarizə haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən Milli Fəaliyyət Planı iştirakçılarının öz vəzifələrini icra etməsi “yalnız zəruri məlumatlara malik olma” prinsipinə əsaslanır. Bu prinsipin tətbiq edilməsi iştirakçıların yalnız səlahiyyətləri daxilində Milli Fəaliyyət Planının icrasında iştirak etməsini təmin edir və Milli Fəaliyyət Planı iştirakçılarının korrupsiyaya məruz qalmasına və insan alveri ilə bağlı cinayətləri törədən şəxslərin iştirakçılara təsir edə bilməsinə qarşı səmərəli müdafiəni təmin etmək məqsədi daşıyır.

Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 144-1.2.6-cı maddəsinə əsasən insan alveri cinayətinin təqsirkar şəxs tərəfindən öz qulluq mövqeyindən istifadə etməklə törədilməsi tövsüfedici əlamət kimi göstərilmiş və həmin əmələ görə 12 ilədək azadlıqdan məhrum etmə cəzası nəzərdə tutulmuşdur.

**II Hissə – Ölkə səciyyəli əlavə suallar**

12. GRETA-nın ikinci qiymətləndirmə hesabatından sonra aşağıdakı amillərlə əlaqədar ölkənizdə baş verən yeniliklər haqqında məlumat verin:

- **İnsan alveri hallarının artması (yeni zorakılıq formaları, yeni icbari iş üsulları, həssas qruplar, insan alverinin cinsi aspektləri, uşaqların insan alverinə məruz qalması);**

**Cavab -** 2017-2021-ci illər üzrə insan alveri cinayətlərinin sayında cüzi artım, məcburi əmək cinayətlərində isə azalma müşahidə edilmişdir. Belə ki, 2017-ci ildə 142 insan alveri 6 məcburi əmək faktları, 71 insan alveri qurbanı (66 qadın, 5 kişi), 2018-ci ildə 144 insan alveri, 4 məcburi əmək faktları, 98 insan alveri qurbanı (82 qadın, 16 kişi), 2019-cu ildə 146 insan alveri, 4 məcburi əmək faktları, 91 insan alveri qurbanı (85 qadın, 5 kişi, 1 uşaq), 2020-ci ildə 155 insan alveri, 5 məcburi əmək faktları, 94 insan alveri qurbanı (89 qadın, 3 kişi, 2 uşaq) 2021-ci ildə 156 insan alveri 3 məcburi əmək faktları, 94 insan alveri qurbanı (94 qadın 1 kişi) qeydə alınmışdır. Ümumilikdə əməyin istismarına məruz qalan qurbanlar kənd təsərrüfatı sahəsində, cinsi istismara məruz qalan qurbanlar isə otel, klub-bar sektorlarında və kirayə tutulmuş mənzillərdə istismara cəlb olunmuşlar.

- **İnsan alveri ilə mübarizə haqqında qanunvericilik və əsasnamələr (məsələn, insan alverinin kriminallaşdırılması, insan alveri qurbanlarının müəyyən olunması və yardım göstərilməsi, bərpa və reabilitasiya dövrü, yaşayış icazəsi, təchizat zənciri, dövlət ittihamı);**

**Cavab -** 2017-ci ildə insan alverinə qarşı mübarizə sahəsində qanunvericiliyin təkmilləşdirilməsi istiqamətində aşağıdakı normativ hüquqi aktlar qəbul edilmişdir:

**1.** “Azərbaycan Respublikasında insan alverinə qarşı mübarizəyə dair 2014-2018-ci illər üçün Milli Fəaliyyət Planı”nın təkmilləşdirilməsinə dair Azərbaycan Respublikası Prezidentinin 3 mart 2017-ci il tarixli 1275 nömrəli və 7 avqust 2017-ci il tarixli 1574 nömrəli Fərmanları;

**2.** İnsan alverinə qarşı mübarizə sahəsində birgə əməkdaşlığı nəzərdə tutan Azərbaycan Respublikası Prezidentinin Venesuela, Bolivar (7 aprel 2017-ci il tarixli), Belarus və Qazaxıstan (oktyabr 2017-ci il tarixli) Respublikalarının Prezidentləri ilə imzalanmış Birgə Bəyannamələrinin təsdiq edilməsi haqqında, Azərbaycan Respublikası ilə Latviya, Polşa (1 dekabr 2017-ci il tarixli), Türkmənistan (29 dekabr 2017-ci il tarixli) Respublikaları arasında strateji tərəfdaşlıq və iqtisadi əməkdaşlığa dair yol xəritəsi haqqında Birgə Bəyannamələrin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunları; Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi ilə Türkmənistanın Daxili İşlər Nazirliyi arasında əməkdaşlıq haqqında Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin 29 noyabr 2017-ci il tarixli 1701 nömrəli Fərmanı;

**3.** İnsan alveri cinayətlərinə qarşı mübarizəni nəzərdə tutan “Cinayət fəaliyyətindən əldə edilən gəlirlərin leqallaşdırılmasına, axtarışına, həbsinə, müsadirəsinə və terrorçuluğun maliyyələşdirilməsinə dair” Avropa Şurası Konvensiyasının təsdiq edilməsi haqqında Azərbaycan Respublikasının 31 may 2017-ci il tarixli Qanunu;

**4.** İnsan alverinə qarşı mübarizə ilə bağlı gənclər arasında maarifləndirmə işinin gücləndirilməsini nəzərdə tutan “Azərbaycan gəncliyi 2017-2021-ci illərdə” Dövlət Proqramı”nın təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 15 sentyabr 2017-ci il tarixli 3236 nömrəli Sərəncamı.

2018-ci ildə insan alverinə qarşı mübarizə sahəsində qanunvericiliyin təkmilləşdirilməsi istiqamətində aşağıdakı normativ hüquqi aktlar qəbul edilmişdir:

1. “Azərbaycan Respublikasının Nazirlər Kabineti, Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası və Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatlarının

Milli Konfederasiyası arasında 2018-2019-cu illər üçün Baş Kollektiv Sazişin bağlanılması haqqında" 7 fevral 2018-ci il tarixli, 36 nömrəli müştərək Qərarı ilə uşaq əməyinin, məcburi əməyin və insan alverinin aradan qaldırılmasını təmin edən, əmək miqrasiyasını tənzimləyən dövlət sosial proqramlarının dəstəklənməsi, birgə monitorinqlərin təşkil edilməsi nəzərdə tutulmuşdur.

2. "Psixoloji yardım haqqında" Azərbaycan Respublikasının 7 dekabr 2018-ci il tarixli 1385-VQ nömrəli Qanunu ilə insan alverinin qurbanı olmuş şəxslərin ödənişsiz psixoloji yardım almaq hüququ təsbit olunmuşdur.

3."Dayanıqlı və Operativ Sosial Təminat Agentliyinin fəaliyyətinin təmin edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 10 dekabr 2018-ci il tarixli, 387 nömrəli Fərmanı ilə "DOST" mərkəzlərində sosial xidmət sahəsində göstərilən xidmətlər üzrə insan alveri qurbanlarının sosial reabilitasiyasının təşkil edilməsi nəzərdə tutulmuşdur.

4. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 19 dekabr tarixli 543 nömrəli Qərarına əsasən 2011-ci il 20 may tarixli 81 nömrəli digər Qərarla təsdiq edilmiş "İnsan alverinə şərait yaradan sosial problemlərin aradan qaldırılması üzrə Proqram"a dəyişiklik edilmişdir (4.3.3-cü yarımbəndində "ilk peşə-ixtisas" sözləri "peşə" sözü ilə əvəz edilmişdir).

5. Azərbaycan Respublikası Prezidentinin Tacikistan (30 oktyabr 2018-ci il tarixli) Respublikalarının Prezideni ilə imzalanmış Birgə Bəyanatın təsdiq edilməsi haqqında və Azərbaycan Respublikası ilə Serbiya (12 oktybar 2018-ci il tarixli) Respublikası arasında strateji tərəfdaşlıq üzrə Birgə Fəaliyyət Planının təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunları qəbul edilmişdir (İnsan alverinə qarşı mübarizə sahəsində birgə əməkdaşlığı nəzərdə tutulmuşdur).

2019-cu ildə insan alverinə qarşı mübarizə fəaliyyəti ilə bağlı aşağıdakı normativ hüquqi aktlar qəbul edilmişdir:

**1.** Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 21 yanvar 2019-cu il tarixli 18 nömrəli və 14 mart 2019-cu il tarixli 99 nömrəli qərarları ilə "İnsan alverinə şərait yaradan sosial problemlərin aradan qaldırılması üzrə Proqram"da dəyişikliklər edilmişdir (Proqramın 4.3.1-ci yarımbəndinin "Tədbirlərin adı" sütununda "ilk dəfə iş axtaran" sözləri "işsiz" sözü ilə əvəz edilmiş, 4.4.4-cü yarımbəndinin "İcraçı orqanlar" sütununda "Rabitə və Yüksək Texnologiyalar" sözləri "Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar" sözləri ilə əvəz edilmişdir).

**2.** Azərbaycan Respublikasının Prezidentinin 4 fevral 2019-cu il tarixli 926 nömrəli Sərəncamı ilə "Azərbaycan Respublikasında insan alverinə qarşı mübarizəyə dair 2014–2018-ci illər üçün Milli Fəaliyyət Planı"nın 13.3.9-cu yarımbəndinin "İcraçı orqanlar" sütununda "Maliyyə Bazarlarına Nəzarət Palatası" sözləri "Maliyyə Monitorinqi Xidməti" sözləri ilə əvəz edilmişdir.

**3.** Azərbaycan Respublikasının 12 fevral 2019-cu il tarixli Qanunu ilə "Xəzər dənizində təhlükəsizlik sahəsində əməkdaşlıq haqqında" Sazişə Xəzər dənizində mütəşəkkil cinayətkarlıqla mübarizədə əməkdaşlıq üzrə Protokol" təsdiq edilmişdir (Protokolda insan, xüsusilə qadın və uşaq alveri ilə bağlı cinayətlərə qarşı mübarizədə tərəflərin hüquq mühafizə orqanlarının əməkdaşlığı nəzərdə tutulmuşdur).

**4.** Azərbaycan Respublikasının 5 mart 2019-cu il tarixli Qanunu ilə "Gənclər siyasəti haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilmişdir (Əlavə olunmuş 1.0.7-ci maddəyə əsasən risk qrupunda olan gənclər siyahısında insan alverinin qurbanı olan gənclər də nəzərdə tutulmuşdur).

**5.** Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 11 aprel 2019-cu il tarixli 157 nömrəli Qərarı ilə "Ümumi istifadədə olan avtomobil nəqliyyatı ilə beynəlxalq və ölkədaxili sərnişin və yük daşımalarını yerinə yetirən sürücülərin peşə fəaliyyətinə və davranışına, iş və istirahət rejiminin xüsusiyyətlərinə, habelə avtomobil nəqliyyatı ilə sərnişin və yük daşımalarını tənzimləyən normativ hüquqi aktlara dair hazırlıq üzrə Xüsusi Proqram"a əsasən "İnsan alverinin qarşısının alınması və onunla mübarizə aparılması barədə məlumat" mövzusunun sürücülərə tədrisi nəzərdə tutulmuşdur.

**6.** Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 4 iyun 2019-cu il tarixli 256 nömrəli Qərarına əsasən insan alverindən zərər çəkmiş şəxslərə reinteqrasiya dövründə ödənilən müavinətin məbləği 700 manata artırılmışdır.

**7.** Azərbaycan Respublikasının 27 iyun 2019-cu il tarixli Qanunu ilə Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsinə əlavə edilmiş 45.1.10-1; 46.6; 50.2; 64.0.15-1-ci maddələrə əsasən insan alverindən zərər çəkmiş şəxs hesab olunan, eləcə də cinayət təqibi orqanlarına yardım göstərən əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə dövlət rüsumu tətbiq olunmadan Azərbaycan Respublikasının ərazisində müvəqqəti yaşamaq üçün icazə verilmiş, həmçinin, bu şəxslər ölkə ərazisində haqqı ödənilən əmək fəaliyyəti ilə məşğul olmaq üçün iş icazəsinin alınmasının tələb olunmasından azad edilmişlər.

**8.** Azərbaycan Respublikasının 8 oktyabr 2019-cu il tarixli Qanunu ilə "İnsan alverinə qarşı mübarizə haqqında" Qanuna edilmiş dəyişikliyə əsasən 15.1-ci maddəyə "psixoloji" sözündən sonra "reabilitasiya və psixoloji korreksiyası" sözləri əlavə edilmişdir.

**9.** Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin 28 oktyabr 2019-cu il tarixli Qərarı ilə "Azərbaycan Respublikasında olan əcnəbilər və vətəndaşlığı olmayan şəxslər haqqında" 1 nömrəli forma (Miqrasiya) rüblük (illik) statistika hesabatı formasına insan alveri qurbanı ilə bağlı göstəricilər əlavə edilmişdir.

**10.** Azərbaycan Respublikasının 22 oktyabr 2019-cu il tarixli Qanunu ilə "Uşaqların cinsi istismardan və cinsi zorakılıqdan müdafiəsi haqqında" Avropa Şurası Konvensiyası təsdiq edilmişdir.

2020-ci ildə insan alverinə qarşı mübarizə fəaliyyəti ilə bağlı aşağıdakı normativ hüquqi aktlar qəbul edilmişdir:

1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 22 fevral 63 nömrəli tarixli qərarı ilə "İnsan alveri qurbanları ilə bağlı Milli İstiqamətləndirmə Mexanizmi Qaydaları"nın təsdiq edilməsi barədə" 2009-cu il 11 avqust tarixli 123 nömrəli qərarına dəyişiklik edilmiş, sözügedən Qaydaların 6.4-cü bəndinə "psixoloji" sözündən sonra "reabilitasiyası və psixoloji korreksiyası" sözləri əlavə edilmişdir.

2. Azərbaycan Dövlət Miqrasiya Xidmətinin Kollegiyasının 2020-ci il 3 mart tarixli 02 nömrəli Qərarı ilə "Azərbaycan Respublikasında müvəqqəti yaşamaq üçün icazənin alınması (müddətinin uzadılması) üçün müraciətin və sənədlərin qəbulu üzrə inzibati reqlament"in təsdiq edilməsi barədə" 2014-cü il 09 dekabr tarixli 11 nömrəli qərara dəyişiklik edilərək Azərbaycan Respublikası ərazisində müvəqqəti yaşamaq üçün icazənin verildiyi hallara şəxsin insan alverindən zərərçəkmiş hesab olunması aid edilmişdir.

3. Azərbaycan Respublikası Maliyyə Nazirliyinin Kollegiyasının 2020-ci il 10 mart tarixli Q-08 nömrəli Qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Vahid Büdcə Təsnifatına uyğun olaraq büdcə xərclərinin iqtisadi təsnifatı üzrə ayrılmış vəsaitlərin istifadəsinin İctimai Sektor üçün Mühasibat Uçotunun Beynəlxalq Standartlarına əsasən "Sosial yardım" köməkçi bölməsinə insan alverindən zərər çəkmiş şəxslərə reinteqrasiya dövründə müavinət ödənilməsi ilə bağlı xərclərin daxil edildiyi qeyd olunmuşdur.

4. Azərbaycan Respublikasının Nazirlər Kabineti, Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası və Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatlarının Milli Konfederasiyası arasında 2020-ci il 19 mart tarixli 99 nömrəli Qərarla bağlanılmış 2020-2022-ci illər üçün Baş Kollektiv Sazişə əsasən uşaq əməyinin, məcburi əməyin və insan alverinin aradan qaldırılmasını təmin edən, əmək miqrasiyasını tənzimləyən dövlət

sosial proqramlarının dəstəklənməsi, birgə monitorinqlərin təşkil edilməsi Azərbaycan Respublikası vətəndaşlarının sosial müdafiəsinin gücləndirilməsi istiqamətlərinə daxil edilmişdir.

5. Azərbaycan Respublikasının 2020-ci il 24 aprel tarixli Qanunu ilə “Yaşayış yeri və olduğu yer üzrə qeydiyyat haqqında” Azərbaycan Respublikası Qanununun tətbiqi haqqında Əsasnamə”yə dördüncü hissə (“İnsan alverindən zərərçəkmiş hesab edilən və ya cinayət təqibi orqanlarına yardım göstərən əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin yaşayış yeri üzrə qeydiyyatı cinayət təqibi orqanının yerləşdiyi ünvan üzrə aparılır.”) əlavə edilmişdir.

6. Azərbaycan Respublikasının 2020-ci il 5 may tarixli Qanunu ilə "Dövlət rüsumu haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilmiş, insan alveri qurbanı olan Azərbaycan Respublikasının vətəndaşları ölkəyə qayıtmaq üçün pasportu əvəz edən qayıdış şəhadətnaməsinin verilməsinə görə dövlət rüsumundan azad edilmişlər.

7. Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 30 iyun tarixli 1077 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Sosial Xidmətlər Agentliyinin Nizamnaməsi"nin 3.1.9-cu yarımbəndi ilə insan alveri qurbanlarına yaradılan yardım mərkəzlərində olanların peşə və sosial reabilitasiyasının həyata keçirilməsi Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin təqdimatı əsasında Agentliyin vəzifəsi kimi müəyyən edilmişdir.

8. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 8 iyul tarixli Qərarı ilə avtomobil nəqliyyatı ilə beynəlxalq sərnişin və yük daşımaları fəaliyyətinin operatorunun məsul şəxsinin və qeyd edilən yük daşımaları həyata keçirən sürücülərin peşəkarlıq səriştələrinə dair proqramlara insan alverinin qarşısının alınması və onunla mübarizə aparılması mövzuları daxil edilmişdir.

9. Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 22 iyul tarixli 2173 nömrəli Sərəncamı ilə "Azərbaycan Respublikasında insan alverinə qarşı mübarizəyə dair 2020-2024-cü illər üçün Milli Fəaliyyət Planı" təsdiq edilmişdir.

10. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 29 iyul tarixli 267 nömrəli Qərarı ilə təsdiq edilmiş "İnformasiya məhsulunun yaş kateqoriyasına aid edilməsi Qaydaları"na əsasən informasiya məhsulunda insanların istismarının qınanılması və insan alverinin qurbanına mərhəmətin təbliği məsələləri nəzərdə tutulmuşdur.

11. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 16 oktyabr 398 nömrəli tarixli Qərarı ilə təsdiq edilmiş "Ödənişsiz psixoloji yardımın göstərilməsi Qaydası və

Şərtləri"ndə insan alverinin qurbanı olmuş şəxslərin ödənişsiz psixoloji yardım almaq hüququ təsbit edilmiş və psixoloji yardımın xüsusiyyətləri nəzərdə tutulmuşdur.

12. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 20 oktyabr tarixli 402 nömrəli Qərarı ilə "İnsan alveri qurbanlarının sosial reabilitasiyasının həyata keçirilməsi Qaydaları"nda dəyişiklik edilməklə 2-ci hissədə "psixoloji" sözündən sonra "reabilitasiya və psixoloji korreksiyası" sözləri əlavə edilmiş, insan alveri qurbanlarına psixoloji yardımın ödənişsiz həyata keçirilməsi öz əksini tapmışdır.

13. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 26 oktyabr 418 nömrəli tarixli Qərarı ilə "İnsan alveri qurbanları ilə bağlı Milli İstiqamətləndirmə Mexanizmi Qaydaları"nın 2.2-ci bəndindən "və Turizm," sözləri çıxarılmış və həmin bəndə "Uşaq Problemləri üzrə Dövlət Komitəsinin," sözlərindən sonra "Azərbaycan Respublikası Dövlət Turizm Agentliyinin," sözləri əlavə edilmişdir.

14. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 30 noyabr 471 nömrəli tarixli Qərarı ilə "İnsan alveri qurbanları üçün xüsusi müəssisələrin yaradılması, maliyyələşdirilməsi, fəaliyyəti, habelə onların fəaliyyətinə nəzarət Qaydaları"nın təsdiq edilməsi haqqında" 2005-ci il 9 noyabr tarixli 203 nömrəli qərarının 2.3-cü bəndinə "Gənclər və İdman Nazirliyi" sözlərindən sonra ", İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi" sözləri, 3.1-ci bəndinə "dövlət orqanları" sözlərindən sonra "(qurumları)" sözü, 3.1.1-ci yarımbəndində isə "Səhiyyə Nazirliyi" sözlərindən sonra "və İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi" sözləri əlavə edilmişdir.

2021-ci ildə insan alverinə qarşı mübarizə fəaliyyəti ilə bağlı aşağıdakı normativ hüquqi aktlar qəbul edilmişdir:

1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 5 mart tarixli 53 nömrəli Qərarı ilə 2006-cı il 6 mart tarixli 62 nömrəli Qərarına dəyişiklik edilmiş, "İnsan alveri qurbanlarının sosial reabilitasiyasının həyata keçirilməsi Qaydaları"nın 7.4-cü bəndində "məşğulluq xidməti orqanları" sözləri "Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Məşğulluq Agentliyinin yerli qurumları və "DOST" mərkəzləri" sözləri ilə əvəz edilmişdir.

2. Azərbaycan Respublikası Maliyyə Nazirliyinin Kollegiyasının 2021-ci il 5 may tarixli Qərarı ilə "Büdcə təşkilatları və dövlət büdcəsindən maliyyə yardımı alan təşkilatlar üçün həmin vəsaitlərdən istifadə barədə aylıq, rüblük və ilin əvvəlindən artan yekunla funksional, iqtisadi və inzibati təsnifatlar üzrə hesabat formaları və onların təqdim edilmə Qaydası"nda dəyişiklik edilmiş, Qaydaların yeni redaksiyada verilmiş

əlavələrində insan alveri göstəricisi üçün xərclərin iqtisadi təsnifat kodu müəyyən edilmişdir.

3. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 8 may tarixli 144 nömrəli Qərarı ilə 2009-cu il 3 sentyabr tarixli 131 nömrəli Qərarında dəyişiklik edilmiş, “İnsan alveri qurbanlarının müəyyən edilməsi Qaydaları (indikatorları)”nın 3.1.4-cü yarımbəndinin dördüncü abzasında “müvafiq standartlara” sözləri “əməyin mühafizəsi norma və qaydalarına” sözləri ilə əvəz edilmişdir.

4. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 21 sentyabr tarixli 274 nömrəli Qərarı ilə 2009-cu il 3 sentyabr tarixli 131 nömrəli Qərarında dəyişiklik edilmiş “İnsan alveri qurbanlarının müəyyən edilməsi Qaydaları (indikatorları)”nın 4.4.1-ci yarımbəndinin səkkizinci abzasında “və səhiyyə orqanları” sözləri “orqanları, tibb müəssisələri” sözləri ilə əvəz edilmişdir.

5. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 30 oktyabr tarixli 329 nömrəli Qərarı ilə 2006-cı il 6 mart tarixli 62 nömrəli Qərarında dəyişiklik edilmiş, “İnsan alveri qurbanlarının sosial reabilitasiyasının həyata keçirilməsi Qaydaları”nın 7.3-cü bəndində “səhiyyə” sözü “tibb” sözü ilə əvəz edilmişdir.

6. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 1 dekabr tarixli 377 nömrəli Qərarı ilə 2009-cu il 3 sentyabr tarixli 131 nömrəli Qərarında dəyişiklik edilmiş, “İnsan alveri qurbanlarının müəyyən edilməsi Qaydaları (indikatorları)”nın 4.4.1-ci yarımbəndinin səkkizinci abzasına “sosial müdafiəsi,” sözlərindən sonra “miqrasiya,” sözü əlavə edilmişdir.

7. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 1 dekabr tarixli 378 nömrəli Qərarı ilə 2013-cü il 10 sentyabr tarixli 252 nömrəli Qərarında dəyişiklik edilmiş, “İnsan alveri qurbanlarının repatriasiya Qaydaları”nın 5.1.1.3-cü yarımbəndinin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilmiş və "şəxsin gələcəkdə yenidən qurban olmaq riskinin qiymətləndirilməsi və qarşısının alınması istiqamətində preventiv tədbirlərin görülməsi" məzmununda 5.1.1.4-cü yarımbənd əlavə edilmişdir.

- **İnsan alveri ilə mübarizə üçün təşkilati və siyasi baza (insan alverinə qarşı milli aksiyaların koordinasiya edilməsinə cavabdeh olan orqanlar, insan alveri ilə mübarizə sahəsində ixtisaslaşmış hüquqi şəxslər, milli məruzəçilik və ya digər bu kimi mexanizm, vətəndaş cəmiyyətinin cəlb olunması, dövlət-özəl tərəfdaşlıq);**

**Cavab -** Azərbaycan Respublikasının Prezidentinin 2020-ci il 22 iyul tarixində 2173 nömrəli Sərəncamı ilə “Azərbaycan Respublikasında insan alverinə qarşı mübarizəyə dair 2020-2024-cü illər üçün Milli Fəaliyyət Planı” təsdiq edilmişdir.

“Azərbaycan Respublikasında insan alverinə qarşı mübarizəyə dair 2020-2024-cü illər üçün Milli Fəaliyyət Planı”nda insan alverinə qarşı mübarizə sahəsində normativ hüquqi bazanın və institusional mexanizmlərin təkmilləşdirilməsi; insan alverinin qarşısının alınması üzrə profilaktiki iş; insan alveri cinayətlərinə qarşı cinayət təqibi; insan alveri qurbanlarının sosial reabilitasiyası və müdafiəsi; insan alverindən zərərçəkmiş, zərər çəkməsi ehtimal olunan və ya insan alverinin potensial qurbanı olan uşaqlara göstərilən yardımın və onların müdafiəsinin təkmilləşdirilməsi; əməkdaşlığın inkişaf etdirilməsi; səlahiyyətli nümayəndələr üçün təlimlərin (ixtisaslaşmış peşə hazırlığının) keçirilməsi; maarifləndirmə; Milli Fəaliyyət Planı iştirakçılarının fəaliyyətinin, insan alverinə qarşı mübarizə üzrə dəstəyin və resursların əlaqələndirilməsi istiqamətləri üzrə 69 tədbirin 32 dövlət qurumu, yerli icra hakimiyyəti orqanları, ixtisaslaşmış qeyri-hökumət təşkilatları, ali təhsil müəssisələri və Yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə komissiyalar tərəfindən icra edilməsi nəzərdə tutulmuşdur.

"İnsan alverinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən Azərbaycan Respublikasında İnsan Alverinə Qarşı Mübarizə üzrə Milli Fəaliyyət Planı insan alverinə qarşı mübarizədə müvafiq qurumların qarşılıqlı fəaliyyətinə imkan verən səmərəli sistemi təmin etmək məqsədi daşıyır. Milli Fəaliyyət Planı insan alverinə qarşı mübarizədə əsas vəzifələri, onların icra edilməsində müxtəlif qurumların (icra hakimiyyəti orqanları, qeyri-hökumət təşkilatları, beynəlxalq tərəfdaşlar və digər orqanlar) iştirakını və bu qurumların fəaliyyətinin Milli Koordinator tərəfindən əlaqələndirilməsini, insan alverinə qarşı mübarizə sahəsində digər tədbirləri nəzərdə tutur. Milli Fəaliyyət Planı iştirakçılarının qarşılıqlı əməkdaşlığının vahid sistemini yaratmaq və bu qurumlar arasında məlumat mübadiləsini təmin etmək məqsədilə Milli Koordinator tərəfindən həmin qurumların fəaliyyətinin əlaqələndirilməsi həyata keçirilir.

Milli Koordinator insan alveri ilə bağlı cinayətlərlə əlaqədar əməliyyat-axtarış fəaliyyətinin və cinayət təqibinin daha səmərəli surətdə həyata keçirilməsi məqsədilə təhlükəsizlik, sərhəd xidməti, polis, prokurorluq orqanları, məhkəmələr, digər dövlət orqanları və qeyri-hökumət təşkilatları ilə zəruri əlaqələr qurur.

Eyni zamanda İnsan alveri qurbanları ilə bağlı Milli İstiqamətləndirmə Mexanizminin həyata keçirilməsi ilə bağlı 15 dövlət qurumundan ibarət idarələrarası komissiya fəaliyyət göstərir.

- Müxtəlif zorakılıq formaları üzrə insan alverinə qarşı presedent hüquq.

**Cavab -** Yoxdur.

13. GRETA-nın ikinci qiymətləndirmə hesabatında irəli sürülən aşağıdakı tövsiyələrlə əlaqədar Sizin ölkənizdə görülən tədbirlər haqqında məlumat verməyiniz xahiş olunur:

- **İcbari iş zorakılığı məqsədi ilə insan alveri hallarının qarşısını almaq və risk altında olan sahələrdə insan alveri qurbanlarını müəyyən etmək üçün görülən səylərin artırılması. 2018-2021-ci illər ərzində iş yerlərində aparılan təftişlərin sayı, eləcə də icbari iş zorakılığı məqsədi ilə insan alveri hallarının və onun qurbanlarının sayı haqqında statistik məlumat verməyiniz xahiş olunur;**

**Cavab -** "Sahibkarlıq saəsində aparılan yoxlamaların dayandırılması haqqında" Azərbaycan Respublikasının Qanunu ilə Azərbaycan Respublikası ərazisində sahibkarlıq subyektlərində aparılan yoxlamalar 2015-ci il tarixdən dayandırılmışdır.

“Azərbaycan Respublikasında insan alverinə qarşı mübarizəyə dair 2020-2024-cü illər üçün Milli Fəaliyyət Planı”nın 4.1.4-cü yarımbəndinin icrası ilə bağlı İnsan alveri və məcburi əmək cinayətlərinin törədilməsinə şərait yaradan halların müəyyən edilməsi və qarşısının alınması, bu cinayətlərin qurbanlarının, o cümlədən ehtimal olunan qurbanların aşkar edilməsi məqsədilə tikinti, kənd təsərrüfatı və xidmət sektorlarında sahibkarlıq sahəsində aparılan yoxlamalarla bağlı normativ hüquqi aktların tələbləri nəzərə alınmaqla monitorinqlərin aparılması, müvafiq istiqamətdə aidiyyəti yoxlayıcı qurumların vəzifələrinin dəqiqləşdirilməsinə dair qanunvericilik layihələri hazırlanaraq Hökumətə təqdim edilmişdir.

Bundan başqa "Azərbaycan Respublikasında insan alverinə qarşı mübarizəyə dair 2020-2024-cü illər üçün Milli Fəaliyyət Planı"nda istehsal və xidmət sahələrində istehlakçıya qədər olan bütün mərhələlərdə insan alveri və məcburi əmək halları ilə bağlı risklərin öyrənilməsi, aşkarlanması, aradan qaldırılması və aidiyyəti dövlət orqanlarının birgə mübarizə tədbirlərinin həyata keçirilməsinə dair təkliflərin 2022-ci ilin yekununadək hazırlanması nəzərdə tutulmuşdur.

2018-2021-ci illərdə "Vətəndaş müraciətləri haqqında" Azərbaycan Respublikası Qanunun tələblərinə uyğun olaraq müraciətlərə baxılması zamanı Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən 7 halda işçini əmək funksiyasına aid olmayan işi (xidməti) yerinə yetirməyə məcbur etmə faktı aşkarlanmış və işəgötürən inzibati məsuliyyətə cəlb edilərək 7200 manat məbləğində inzibati cərimə edilmişdir.

- **Müvəqqəti miqrantlar və siyasi sığınacaq axtaran şəxslər arasında insan alveri qurbanlarının aşkarlanmasının təkmilləşdirilməsi;**

**Cavab -** 2017-2021- ci illər ərzində Dövlət Miqrasiya Xidmətinə müraciət edən şəxslər, o cümlədən qaçqın statusu almış şəxslər sırasından insan alveri qurbanı müəyyən edilməmişdir.

- **Küçə şəraitində, risk altında olan kənd yerlərində, eləcə də uşaq evlərində böyüyən uşaqlara xüsusi diqqət yetirməklə, həssas təbəqəyə aid olan uşaqların mühafizəsinin təkmilləşdirilməsi. 2018-2021-ci illər ərzində uşaq nigahının və zorla nigah bağlanması hallarının qarşısının alınması və anadan olan bütün uşaqların qeydə alınması üçün hansı tədbirlər görülüb?**

**Cavab -** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 23 iyun tarixli 213 nömrəli Qərarı ilə "Gənclər arasında ailənin və nikahın əhəmiyyəti, onun qorunması və möhkəmləndirilməsi məqsədilə erkən nikahın və qohumlar arasında nikahın mənfi nəticələrinə dair maarifləndirmə Qaydası" təsdiq edilmişdir.

Digər dövlət orqanları ilə yanaşı Ədliyyə Nazirliyi qeydiyyat şöbələri vasitəsilə nikaha daxil olmaq üçün müraciət edən erkən nikah yaşında olan gənclərin erkən nikahın və qohumlar arasında nikahın həyat və sağlamlığa, həyat keyfiyyətinə, mənəvi-psixoloji inkişafa mənfi təsiri barədə məlumatlandırılmasını təmin edir.

Ədliyyə Nazirliyinin qeydiyyat şöbələri tərəfindən 2020-ci ildə nikaha daxil olmaq üçün müraciət etmiş 61, 2021-ci ildə 256 erkən nikah yaşında olan (18 yaşadək) gəncin erkən nikahın və qohumlar arasında nikahın həyat və sağlamlığa, həyat keyfiyyətinə, mənəvi-psixoloji inkişafa mənfi təsiri barədə məlumatlandırılması təmin edilmişdir.

Qeyd edilməlidir ki, müvafiq Qayda təsdiq edilənədək ailə institutunun inkişafı, nikah münasibətlərinin möhkəmləndirilməsi və ailələrin qorunub saxlanılması məsələsi Ədliyyə Nazirliyinin rəhbərliyinin xüsusi diqqət mərkəzində olmuş, 2018-ci ildən etibarən isə bu sahədə işlər daha da genişləndirilmişdir.

Belə ki, Ədliyyə Nazirliyinin əməkdaşları tərəfindən mütəmadi olaraq ölkənin bütün yaşayış məntəqələrində əhali arasında nikahın dövlət qeydiyyatının əhəmiyyəti barədə maarifləndirmə işi aparılır, nikahın qeydiyyatı sahəsinə dair qanunvericiliyin tələblərini əks etdirən bələdçilər paylanılır, faktiki nikah münasibətlərində olan şəxslər müəyyən edilir və onlara tibbi müayinədən keçmələrinə köməklik göstərilməklə nikahları dövlət qeydiyyatına alınır.

Bildirilir ki, 2018-ci ildə 1.483, 2019-cu ildə 1.395, 2020-ci ildə 981, 2021-ci ildə isə 879 faktiki nikah münasibətində olan şəxsin nikahı rəsmiləşdirilmişdir.

Bundan başqa ölkəmizdə erkən nikahların qarşısının alınması və bu sahədə məlumatlılığın artırılması məqsədilə Ədliyyə Nazirliyinin əməkdaşları tərəfindən mütəmadi olaraq əhali, xüsusilə də məktəblərdə yeniyetmələr arasında izahat işi və söhbətlər aparılır, ictimaiyyətlə görüşlər keçirilir. 2018-ci ildə 229, 2019-cu ildə 397, 2020-ci ildə 53, 2021-ci ildə isə 140 maarifləndirmə tədbirləri keçirilmişdir.

Həmçinin bildirilir ki, doğumun qeydə alınması zamanı şəxsin özünün və ya valideynlərinin irqinə, etnik mənsubiyyətinə, dininə, dilinə, cinsinə, mənşəyinə, əmlak vəziyyətinə, qulluq mövqeyinə, əqidəsinə, siyasi partiyalara, həmkarlar ittifaqlarına və digər ictimai birliklərə mənsubiyyətinə görə hüquqlarının hər hansı formada məhdudlaşdırılmasına yol verilmir.

Qeyd olunur ki, Azərbaycan Respublikası Prezidentinin "Vətəndaşlıq vəziyyəti aktlarının dövlət qeydiyyatı sahəsində elektron xidmətlərin tətbiqinin genişləndirilməsi haqqında" 2020-ci il 23 sentyabr tarixli 1160 nömrəli Fərmanına əsasən vətəndaşlıq vəziyyəti aktlarının dövlət qeydiyyatı sahəsində müasir informasiya-kommunikasiya texnologiyalarından istifadənin genişləndirilməsi, habelə doğumun və ölümün qeydə alınması sahəsində fəaliyyətin təkmilləşdirilməsi, operativliyin və əlçatanlığın təmin edilməsi qərara alınmışdır.

Belə ki, doğum faktı baş verdikdən sonra səhiyyə orqanları tərəfindən bu barədə məlumat informasiya sistemi vasitəsilə Ədliyyə Nazirliyinin informasiya sisteminə göndərilir və məlumat "Azərbaycan Respublikası Əhalisinin Dövlət Reyestri"nə daxil olduqda uşağa avtomatlaşdırılmış rejimdə təkrar olunmayan (unikal) və həyatının sonunadək dəyişməyən fərdi identifikasiya nömrəsi verilir.

Fərmandan irəli gələrək doğum və ölümün elektron müraciət əsasında qeydə alınması və elektron şəhadətnamələrinin verilməsi ilə bu sahədə xidmətlərə əlçatanlığın artırılması təmin edilmişdir.

Eyni zamanda bildirilir ki, Ədliyyə Nazirliyinin təşəbbüsü ilə əməkdaşlar tərəfindən bölgələrdə 2018-ci ildə 4.940, 2019-cu ildə 3.474, 2020-ci ildə 1.401, 2021-ci ildə isə 636 uşağın doğumu səyyar qaydada doğum evlərində dövlət qeydiyyatına alınmışdır.

- **İnsan alverinin bütün qurbanlarına, o cümlədən ehtimal olunan qurbanlarına yardım göstərilməsi, o cümlədən ölkə ərazisində onlara sığınacaq verilməsinin və xidmət göstərilməsinin təmin olunması. 2018-2021-ci illər ərzində insan alveri qurbanlarına köməklik göstərilməsi üçün qeyri-hökumət təşkilatlarının əldə etdiyi dövlət yardımı, eləcə də yardım mərkəzləri və səhiyyə təşkilatları tərəfindən göstərilən yardımlar haqqında məlumat verilməsi xahiş olunur;**

**Cavab -** **2018-ci ildə** müəyyən edilmiş 98 nəfər insan alveri qurbanının hər birinə Nazirlər Kabinetinin müvafiq qərarına əsasən 400 manat məbləğində birdəfəlik müavinət ödənilmiş, 95 nəfər insan alveri qurbanı, 3 nəfər ehtimal olunan insan alveri qurbanı və 1 nəfər insan alveri qurbanının 2 azyazlı uşağı müvəqqəti yaşaması üçün Baş İdarəyə bilavasitə tabe olan İnsan alveri qurbanları üçün Sığınacağa yerləşdirilmiş, hər birinə tibbi, sosial, psixoloji, hüquqi və digər yardımlar göstərilmiş, zəruri geyimlə təmin olunmuşlar. Qurbanlardan 46 nəfəri peşə kurslarına yönəldilmiş, 32-si işlə təmin edilmiş, 6-na şəxsiyyət vəsiqəsi alınmasında köməklik göstərilmiş, 1-nə cərrahiyə əməliyyatı keçirilməsində, 5-nə xəstəxanada stasionar müalicə almasında köməklik göstərilmiş, 1-i Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Pensiya yaşına çatmış şəxslər üçün sosial xidmət müəssisəsinə yerləşdirilmiş, 69 nəfər insan alveri qurbanının ailəsi ilə söhbətlər aparılaraq ailələrinə qayıdışı təmin edilmişdir.

Sosial xidmətlər göstərən qeyri-hökumət təşkilatlarına istiqamətləndirilmiş 61 nəfər insan alveri qurbanından 36 nəfərinə "Təmiz Dünya" Qadınlara Yardım İctimai Birliyinin, 11 nəfərinə "Azərbaycan Uşaqlar Birliyi" İctimai Birliyinin, 10 nəfərinə "Təmas" Regional İnkişaf İctimai Birliyinin Sığınacaqlarında, 19 nəfərinə isə "Ailə Dünyası" Ailələrə Hüquqi Yardım İctimai Birliyində müvafiq yardımlar göstərilmişdir.

Müəyyən edilmiş 98 insan alveri qurbanının 92-si Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında İnsan alveri qurbanlarına Yardım Mərkəzinə istiqamətləndirilmiş, 47-nə psixoloji, 32 nəfərə hüquqi, 28-nə tibbi yardım göstərilmiş, 13-ü isə peşə kurslarına yönləndirməklə bağlı Nazirliyin Dövlət Məşğulluq Xidmətinə istiqamətləndirilmişdir.

Qeyri hökumət təşkilatları tərəfindən isə Yardım Mərkəzinə 25 nəfər potensial insan alveri qurbanı istiqamətləndirilmişdir. Həmin şəxslərin hər birinə tibbi, 19-na hüquqi, 17-nə psixoloji yardım göstərilmiş, 9 nəfər peşə kurslarına yönləndirilmiş, 10 nəfər isə məşğulluğun təmin edilməsi ilə bağlı Nazirliyin Dövlət Məşğulluq Xidmətinə istiqamətləndirilmişdir.

Qurbanların uşaqları da diqqətdə saxlanılmış, onların 27 uşağı məktəbdənkənar tədris proqramlarında istifadə olunan ləvazimatlarla təmin edilmiş, 25 uşaq məktəbəqədər təhsil proqramına cəlb edilmiş, 9 insan alveri qurbanının 13 uşağına doğum haqqında şəhadətnamə alınmasında, 1 insan alveri qurbanının 2 azyaşlı uşağının "Ümid" uşaq sığınacağına yerləşdirilməsində, 16 uşağın atalığının müəyyən edilib alimentlə təmin olunmasında köməklik göstərilmişdir.

İnsan alverinin qarşısının alınması sahəsində fəaliyyət göstərən QHT-lər maarifləndirmə işlərinə, insan alveri qurbanları üçün xüsusi müəssələrin fəaliyyətinin təşkil edilməsinə, insan alveri qurbanlarına hüquqi yardımların göstərilməsinə və onların sosial reabilitasiyasına cəlb edilmişlər. İnsan alverinə qarşı mübarizə fəaliyyətində fəal iştirak etdiklərinə görə Daxili İşlər Nazirliyi tərəfindən 17 QHT-nin nümayəndələrinin hər biri 1000 (bir min) manat məbləğində pulla mükafatlandırılmışlar.

Qeyri-hökumət təşkilatlarının insan alverinə qarşı mübarizəyə dair təqdim etdiyi ümumi dəyəri 110 min manat olan 15 layihə Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurası tərəfindən maliyyələşdirilmişdir.

**2019-cu ildə** müəyyən edilmiş 91 nəfər insan alveri qurbanının hər birinə Nazirlər Kabinetinin müvafiq qərarına əsasən birdəfəlik müavinət ödənilmiş, 78 nəfər insan alveri qurbanı, 1 nəfər insan alverinin ehtimal olunan qurbanı və onun 2 azyaşlı uşağı (cəmi 81 nəfər) müvəqqəti yaşaması üçün Baş İdarəyə bilavasitə tabe olan İnsan alveri qurbanları üçün sığınacağa yerləşdirilmiş, hər birinə tibbi, sosial, psixoloji, hüquqi və digər yardımlar göstərilmiş, zəruri geyimlə təmin olunmuşlar.

45 nəfər peşə kurslarına yönəldilmiş, 14-ü işlə təmin edilmiş, 5-nə şəxsiyyət vəsiqəsi alınmasında, vətəndaşlığı olmayan 1 qurbana Rusiya Federasiyası vətəndaşı və pasportu alınmasında, 1 insan alveri qurbanı olan uşağa doğum haqqında şəhadətnamə alınmasında və fərdi təhsilə cəlb olunmasında, 1-nə cərrahiyə əməliyyatı keçirilməsində köməklik göstərilmiş, 1 insan alverinin ehtimal olunan qurbanı Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin pensiya yaşına çatmış şəxslər üçün sosial xidmət müəssisəsinə yerləşdirilmiş, 58 nəfər (63.7%) insan alveri qurbanının ailəsi ilə söhbətlər aparılaraq ailələrinə qayıdışı təmin edilmişdir.

Sosial xidmətlər göstərilməsinin təmin olunması məqsədilə qeyri-hökumət təşkilatlarına istiqamətləndirilmiş 67 (73.6%) nəfər insan alveri qurbanından 27 nəfərinə "Təmiz Dünya" Qadınlara Yardım İctimai Birliyinin, 11 nəfərinə "Təmas" Regional İnkişaf İctimai Birliyinin, 7 nəfərinə "Azərbaycan Uşaqlar Birliyi" İctimai Birliyinin sığınacaqlarında, 22 nəfərinə isə "Ailə Dünyası" Ailələrə Hüquqi Yardım İctimai Birliyində müvafiq yardımlar göstərilmişdir.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında İnsan alveri qurbanlarına Yardım Mərkəzinə istiqamətləndirilmiş 85 qurbandan 36-na psixoloji, 21-nə hüquqi, 19-na tibbi yardımlar

göstərilmiş, 1 insan alveri qurbanına və 1 insan alveri qurbanının övladına cərrahiyə əməliyyatı keçirilməsində köməklik göstərilmiş, 9-u peşə kurslarına yönləndirilməklə bağlı, 11-i isə məşğulluğun təmin edilməsi məqsədilə Dövlət Məşğulluq Xidmətinə istiqamətləndirilmişdir.

Qeyri hökumət təşkilatları tərəfindən isə Yardım Mərkəzinə 36 nəfər insan alverinin potensial qurbanı istiqamətləndirilmişdir. Həmin şəxslərdən hər birinə tibbi, 24-nə psixoloji, 20-nə isə hüquqi yardım göstərilmiş, 7-si peşə kurslarına yönləndirməklə bağlı, 2-si isə məşğulluğun təmin edilməsi məqsədilə Dövlət Məşğulluq Xidmətinə istiqamətləndirilmişdir.

Qurbanların uşaqları da diqqətdə saxlanılmış, onların 56 uşağı məktəbdənkənar tədris proqramlarında istifadə olunan ləvazimatlarla təmin edilmiş, 22 uşaq məktəbəqədər təhsil proqramına cəlb edilmiş, 14 insan alveri qurbanının 18 uşağına doğum haqqında şəhadətnamə alınmasında, 12 insan alveri qurbanının 15 uşağının atalığının müəyyən edilib alimentlə təmin olunmasında köməklik göstərilmişdir.

İnsan alverinə qarşı mübarizə fəaliyyətində fəal iştirak etdiklərinə görə DİN tərəfindən 18 QHT nümayəndələrinin hər biri 1000 (bir min) manat məbləğində pulla mükafatlandırılmışlar.

Qeyri-hökumət təşkilatlarının təqdim etdiyi 20 müvafiq layihəyə Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurası tərəfindən 209 min manat vəsait ayrılmışdır ki, onun da 105 min manatı üç sığınacağın və beş reabilitasiya mərkəzinin maliyyələşdirilməsinə yönəldilmişdir.

**<u>2020-ci ildə</u>** müəyyən edilmiş 94 nəfər insan alveri qurbanının 91-nə Nazirlər Kabinetinin müvafiq qərarına əsasən birdəfəlik müavinət ödənilmiş, 80 nəfər insan alveri qurbanı və 1 nəfər insan alverinin ehtimal olunan qurbanı (cəmi 81 nəfər) müvəqqəti yaşaması üçün Baş İdarəyə bilavasitə tabe olan İnsan alveri qurbanları üçün sığınacağa yerləşdirilmiş, hər birinə tibbi (80-nə HİV, AİDS, CYÖX, 77-nə ginikoloji, 38-nə terapevt), sosial, psixoloji, hüquqi və digər yardımlar göstərilmiş, zəruri geyimlə təmin olunmuşlar.

25 insan alverinin qurbanı peşə kurslarına yönəldilmiş, 12-nin işlə təmin edilməsində, 1 Rusiya Federasiyası vətəndaşı olan qurbana pasport, 8 qurbana isə şəxsiyyət vəsiqəsi alınmasında köməklik göstərilmiş, 58 qurbanının ailəsi ilə söhbətlər aparılaraq ailələrinə qayıdışı təmin edilmişdir.

Sosial xidmətlər göstərilməsinin təmin olunması məqsədilə qeyri-hökumət təşkilatlarına istiqamətləndirilmiş 80 nəfər insan alveri qurbanından 21 nəfərinə “Təmiz Dünya” Qadınlara Yardım İctimai Birliyinin, 14 nəfərinə “Təmas” Regional İnkişaf İctimai Birliyinin sığınacaqlarında, 19 nəfərinə “Ailə Dünyası” Ailələrə Hüquqi Yardım İctimai Birliyində, 15-nə “Qadın Təşəbbüsü və Sosial Problemlərin Həllinə Yardım” İctimai Birliyində, 11-nə isə “XXI Əsrin Qadınları” İctimai Birliyində müvafiq yardımlar göstərilmişdir.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında İnsan alveri qurbanlarına Yardım Mərkəzinə istiqamətləndirilmiş 90 qurbandan 5-nə psixoloji, 5-nə hüquqi, 1-nə tibbi yardımlar göstərilmiş, 2-i isə məşğulluğun təmin edilməsi, 1-i isə peşə kurslarına yönləndirilməsi məqsədilə Dövlət Məşğulluq Xidmətinə istiqamətləndirilmişdir.

Qeyri-hökumət təşkilatları tərəfindən isə Yardım Mərkəzinə 22 nəfər insan alverinin potensial qurbanı istiqamətləndirilmişdir. Həmin şəxslərdən 18-nə tibbi, 9-na psixoloji, 6-na isə hüquqi yardım göstərilmiş, 3-ü məşğulluğun təmin edilməsi, 7-si isə peşə kurslarına yönləndərilməsi məqsədilə Dövlət Məşğulluq Xidmətinə istiqamətləndirilmişdir.

Qurbanların uşaqları da diqqətdə saxlanılmış, onların 27 uşağı tədris proqramlarında istifadə olunan ləvazimatlarla təmin edilmiş, 12 uşaq məktəbəqədər təhsil proqramına cəlb edilmiş, 11 insan alveri qurbanının 14 uşağına doğum haqqında şəhadətnamə alınmasında, 8 insan alveri qurbanının 9 uşağının atalığının müəyyən edilib alimentlə təmin olunmasında köməklik göstərilmişdir.

İnsan alverinə qarşı mübarizə fəaliyyətində fəal iştirak etdiklərinə görə DİN tərəfindən 18 QHT nümayəndələrinin hər biri 1000 (bir min) manat məbləğində pulla mükafatlandırılmışlar.

Qeyri-hökumət təşkilatlarının insan alverinə qarşı mübarizəyə dair təqdim etdiyi 20 layihəyə Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurası tərəfindən 172,5 min manat vəsait ayrılmışdır.

**2021-ci ildə** müəyyən olunmuş insan alveri qurbanlarından 95-nə Nazirlər Kabinetinin müvafiq qərarına əsasən birdəfəlik müavinət ödənilmiş, 73 nəfər insan alveri qurbanı və 1 nəfər insan alverinin ehtimal olunan qurbanı (cəmi 74 nəfər) müvəqqəti yaşaması üçün Baş İdarəyə bilavasitə tabe olan İnsan alveri qurbanları üçün sığınacağa yerləşdirilmiş, hər birinə tibbi (HİV, AİDS, CYÖX, ginikoloji, terapevt), sosial, psixoloji, hüquqi və digər yardımlar göstərilmiş, zəruri geyimlə təmin olunmuşlar.

23 insan alverinin qurbanı peşə kurslarına yönəldilmiş, 8-nin işlə təmin edilməsində, ötən illərdə müəyyən edilmiş 1 əcnəbi (Rusiya Federasiyası vətəndaşı) insan alverinin qurbanına Azərbaycan Respublikasında müvəqqəti yaşama icazəsi alınmasında, 2 insan alveri qurbanı olan uşağa şəxsiyyət vəsiqəsi alınmasında, 7 insan alveri qurbanına şəxsiyyət vəsiqəsi alınmasında, 3-nə cərrahiyyə əməliyyatı keçirməsində, 1 insan alveri qurbanının xəstəxanaya yerləşdirilərək müalicə alınmasında köməklik edilmiş, 56 insan alveri qurbanının ailəsi ilə söhbətlər aparılaraq ailələrinə qayıdışı təmin edilmişdir.

Daxili İşlər Nazirliyinin İnsan Alverinə qarşı Mübarizə Baş İdarəsinə bilavasitə tabe olan İnsan alveri qurbanları üçün sığınacağın saxlanılması üçün 2021-ci ildə DİN-in büdcəsindən 122.126 manat ayrılmış, 116.832 manat xərclənmiş, 5293 manat dövlət büdcəsinə qaytarılmışdır.

Sosial xidmətlər göstərilməsinin təmin olunması məqsədilə qeyri-hökumət təşkilatlarına istiqamətləndirilmiş 89 nəfər insan alveri qurbanından 20-nə "Təmiz Dünya Qadınlara Yardım" İctimai Birliyinin, 15-nə "Təmas Regional İnkişaf" İctimai Birliyinin sığınacaqlarında, 20-nə "Ailə Dünyası Ailələrə Hüquqi Yardım" İctimai Birliyində, 20-nə "XXI Əsrin Qadınları" İctimai Birliyində, 14-nə "Qadın Təşəbbüsü və Sosial Problemlərin Həllinə Yardım" İctimai Birliyində müvafiq yardımlar göstərilmişdir.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında İnsan alveri qurbanlarına Yardım Mərkəzinə istiqamətləndirilmiş 85 qurbandan 29-na psixoloji, 15-nə hüquqi, 8-nə tibbi yardımlar göstərilmişdir.

Qeyri-hökumət təşkilatları tərəfindən isə Yardım Mərkəzinə 18 nəfər insan alverinin potensial qurbanı istiqamətləndirilmiş, 9-na tibbi, 5-nə psixoloji, 4-nə hüquqi yardım göstərilmiş, 1 nəfər potensial insan alveri qurbanı işlə təmin edilməsi, 1 nəfər isə peşə kursuna cəlb edilməsi məqsədilə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Dövlət Məşğulluq Agentliyinə yönəldilmişdir.

Qurbanların uşaqları da diqqətdə saxlanılmış, onların 23 uşağı tədris proqramlarında istifadə olunan ləvazimatlarla təmin edilmiş, 14 uşaq məktəbəqədər təhsil proqramına cəlb edilmiş, 13 insan alveri qurbanının 15 uşağına doğum haqqında şəhadətnamə alınmasında, 8 insan alveri qurbanının 9 uşağının atalığının müəyyən edilib alimentlə təmin olunmasında, 12 insan alveri qurbanına nikahın pozulması haqqında şəhadətnamə alınmasında köməklik göstərilmişdir.

İnsan alverinə qarşı mübarizə fəaliyyətində fəal iştirak etdiklərinə görə DİN tərəfindən 16 QHT nümayəndələrinin hər biri 1000 (bir min) manat məbləğində pulla mükafatlandırılmışlar.

Qeyri-Hökumət Təşkilatlarına *(QHT)* Dövlət Dəstəyi Agentliyi tərəfindən insan alverinə qarşı mübarizə sahəsində fəaliyyət göstərən QHT-lərə ayrılmış 151 min 500 manat maliyyə vəsaiti ayrılmışdır.

- **İnsan alverinin azyaşlı qurbanlarının aşkarlanmasının və yardım göstərilməsinin təkmilləşdirilməsi;**

**Cavab -** “Uşaq hüquqları haqqında” Azərbaycan Respublikasının 1998-ci il 19 may tarixli 499-IQ nömrəli Qanunu Azərbaycan Respublikasının Konstitusiyasına, Uşaq Hüquqları Bəyannaməsinə, Uşaq Hüquqlarına dair Konvensiya və digər beynəlxalq hüquq normalarına uyğun olaraq Azərbaycan Respublikasında uşaqların hüquqlarını və azadlıqlarını, uşaqlar barəsində dövlət siyasətinin əsas prinsiplərini, onların müdafiəsi sahəsində dövlət orqanlarının, fiziki və hüquqi şəxslərin vəzifələrini müəyyən edir.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2008-ci il 1 fevral tarixli 21 nömrəli Qərarı ilə təsdiq edilmiş “İnsan alveri cinayəti qurbanlarının insan alverinə qarşı mübarizə üzrə xüsusi polis qurumuna təhvil verilməsi Qaydaları” dövlət və qeyri-dövlət qurumları tərəfindən insan alveri cinayətinin qurbanı olmuş şəxslərin (uşaqların) və ehtimal edilən qurbanların (uşaqların) insan alverinə qarşı mübarizə üzrə xüsusi polis qurumuna təhvil verilməsi mexanizmlərini tənzimləyir.

İnsan alveri qurbanlarının, o cümlədən uşaq qurbanların hüquqlarının qorunmasını və onların aidiyyəti quruma təhvil verilməsini, təhlükəsizliyini, repatriasiyasını, sosial reabilitasiyasını təmin edəcək səmərəli sistemin yaradılması və bu sahədə qaydaların formalaşdırılması məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 2009-cu il

11 avqust tarixli 123 nömrəli Qərarı ilə "İnsan alveri qurbanları ilə bağlı Milli İstiqamətləndirmə Mexanizmi Qaydaları" təsdiq edilmişdir.

Bundan başqa, Azərbaycan Respubikasının Nazirlər Kabinetinin 2009-cu il 3 sentyabr tarixli 131 nömrəli Qərarı ilə "İnsan alveri qurbanlarının müəyyən edilməsi Qaydaları (İndikatorları)" təsdiq edilmişdir ki, insan alverinin qurbanı olan şəxslərin (insan alverinin qurbanı olan uşaqların) əlamətləri, müəyyən edilməsi üsulları, müəyyənləşdirmə metodikası, müəyyənləşdirmə sorğusu, qiymətləndirmə üçün suallar, əlavə təsdiqedici materiallar, insan alverinin qurbanları ilə anket sorğusunun aparılmasına dair əlavə tövsiyələr bu qaydalarda öz əksini tapmışdır.

Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 22 iyul tarixli 2173 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında insan alverinə qarşı mübarizəyə dair 2020-2024-cü illər üçün Milli Fəaliyyət Planı"nın həyata keçirilməsi üzrə Tədbirlər Planının 4.5.9-cu yarmbəndində hüquq-mühafizə orqanlarının və insan alverinə qarşı mübarizə sahəsində fəaliyyət göstərən digər dövlət qurumlarının əməkdaşları tərəfindən insan alverindən zərər çəkmiş və ya zərər çəkməsi ehtimal olunan uşaqlarla ünsiyyətin ümumi standartlarının, həmçinin müvafiq işlərin və zərər çəkmiş uşaqların aidiyyəti üzrə təqdim edilməsi prosedurlarının hazırlanması nəzərdə tutulmuşdur.

İnsan alverinin qurbanı olan uşaqlarla ünsiyyət, onların aidiyyəti üzrə təqdim edilməsi məsələlərini tənzimləyən, həmçinin vətəndaş cəmiyyəti, beynəlxalq təşkilatların nümayəndələrinin və digər iştirakçıların rollarını dəqiq müəyyən edən, beynəlxalq təcrübə öyrənilməklə dövrü olaraq təkmilləşdirilən və hazırda qüvvədə olan normativ-hüquqi aktlar "İnsan alverindən zərər çəkmiş və ya zərər çəkməsi ehtimal olunan uşaqlarla ünsiyyətin ümumi standartları, müvafiq işlərin və zərər çəkmiş uşaqların aidiyyəti üzrə təqdim edilməsi prosedurları" funksiyasını tam həyata keçirir. Bununla bağlı mövcud qanunvericilikdən çıxarışlar edilməklə metodiki vəsait hazırlanmışdır.

- **İnsan alverinə məruz qalmış şəxslərin xidmətlərinə dair tələbatların məhdudlaşdırılması üçün zəruri tədbirlərin görülməsi.**

**Cavab -** İnsan alverinə məruz qalmış şəxslərin xidmətlərinə dair tələbatların məhdudlaşdırılması üçün aşağıdakı zəruri profilaktiki tədbirlər görülür:

- İnsan alverinin qurbanı olmuş şəxslərin müdafiəsi sahəsində qabaqcıl beynəlxalq təcrübənin öyrənilməsinin davam etdirilməsi və bununla bağlı məlumatların aidiyyəti dövlət orqanlarına təqdim olunması;

- insan alverinə şərait yaradan sosial problemlərin həllinə yönəldilmiş proqramların hazırlanması və həyata keçirilməsi;

- qadın və uşaqların hüquqi və sosial müdafiəsinin gücləndirilməsi;

- insan alverinin potensial qurbanlarının ictimai-faydalı əməyə cəlb edilməsi, onların məşğulluğunun təmin edilməsi;

- insan alverindən zərər çəkmiş şəxslərin işə götürülməsi üçün sahibkarların həvəsləndirilməsi;

- insan alverinin potensial qurbanları arasında maarifləndirmə və təbliğat işinin təşkil edilməsi, onların insan alveri qurbanlarını gözləyən təhlükə, dövlət tərəfindən təmin edilən müdafiə tədbirləri, insan alverinə qarşı dövlət tərəfindən həyata keçirilən inzibati, cinayət-hüquqi və digər tədbirlər barədə məlumatlandırılması;

- respublika ərazisində turizmin inkişafı və genişlənməsi ilə əlaqədar müəyyən şəxslərin insan alverinin qurbanı olmaq riskinin qarşısının alınması və belə şəxslərin mənafelərinin qorunması məqsədilə qabaqlayıcı tədbirlər hazırlanması;

- uşaqların baxımsızlığına və kimsəsizliyinə şərait yaradan səbəb və halların aşkar edilməsinə və aradan qaldırılmasına yönəldilmiş sosial, hüquqi, pedaqoji və digər tədbirlər sisteminin yaradılması və ondan səmərəli istifadə edilməsi;

- təhsildən yayınan uşaqların aşkar edilməsi, onların tərbiyə edilməsi və təhsil almaları üçün tədbirlərin görülməsi;

- təhsil müəssisələri, uşaq evləri, internat məktəbləri və yetkinlik yaşına çatmayanların baxımsızlığının və hüquq pozuntularının profilaktikasını həyata keçirən digər orqan və müəssisələrdə xüsusi proqramların hazırlanması və həyata keçirilməsi və s.

**III Hissə - İnsan alveri üzrə statistika**

14. **2017-ci ildən başlayaraq,** aşağıdakı göstəricilər haqqında statistik məlumatların təqdim edilməsi (imkan daxilində, ayrı-ayrılıqda) xahiş olunur:

- **Dövlət təşkilatı və ya səlahiyyətli qeyri-hökumət təşkilatı tərəfindən aşkarlanmış və Konvensiyada nəzərdə tutulan hüquqlardan yararlanma səlahiyyəti olduğu müəyyən edilən insan alveri qurbanlarının (o cümlədən, ehtimal olunan) sayı (cinsi mənsubiyyəti, yaşı, milliyyəti, zorakılıq forması, daxili və ya transmilli insan alverinun qurbanı olması və onu aşkarlayan orqan göstərilməklə).**

**Cavab -** 2017-ci il üzrə: 71 nəfər insan alveri qurbanı müəyyən edilmişdir. Onlardan 66-sı qadın və 5-i kişi olmaqla, 11-i 18-25 yaş arası, 38-i 25-35 yaş arası, 22-si 35 yaşdan yuxarı yaş həddində olmuşdur. 68-i Azərbaycan Respublikası, 2-si Rusiya Federasiyası, 1-i isə Ukrayna vətəndaşı olmuşdur. Qurbanların 66-sı cinsi, 5-nin isə əməyi istismar olunmuşdur. Onlardan 43-ü Türkiyə Respublikasında, 9-u Birləşmiş Ərəb Əmirliyində, 8-i Rusiya Federasiyasında, 5-i Malayziya Federasiyasında, 4-ü Pakistan İslam Respublikasında və 2-si ölkə daxilində istismar olunmuşdur.

2018-ci il üzrə: 98 nəfər insan alveri qurbanı müəyyən edilmişdir. Onlardan 82-si qadın və 16-sı kişi olmaqla, 22-si 18-25 yaş arası, 54-ü 25-35 yaş arası, 22-si 35 yaşdan yuxarı yaş həddində olmuşdur. Hamısı Azərbaycan Respublikası vətəndaşıdır. Qurbanlardan 82-si cinsi, 16-nın isə əməyi istismar olunmuşdur. Onlardan 71-i Türkiyə Respublikasında, 20-si Rusiya

Federasiyasında, 3-ü İran İslam Respublikasında, 2-si Birləşmiş Ərəb Əmirliyində, 1-i Malayziya Federasiyasında və 1-i ölkə daxilində istismar olunmuşdur.

2019-cu il üzrə: 91 nəfər insan alveri qurbanı müəyyən edilmişdir. Onlardan 85-i qadın, 5-i kişi, 1-i (oğlan) isə uşaq olmaqla, 1-i uşaq, 12-si 18-25 yaş arası, 46-sı 25-35 yaş arası, 32-si 35 yaşdan yuxarı yaş həddində olmuşdur. 89-u Azərbaycan Respublikası vətəndaşı, 1 Tacikistan, 1 Özbəkistan vətəndaşı olmuşdur. 91 insan alverinin qurbanından 85-i cinsi, 6-sının isə əməyi istismar olunmuşdur. Onlardan 54-ü Türkiyə Respublikasında, 16-sı Qətər Dövlətində, 8-i İran İslam Respublikasında, 5-i Rusiya Fedrasiyasında, 5-i Birləşmiş Ərəb Əmirliyində və 3-ü ölkə daxilində istismar olunmuşdur.

2020-ci il üzrə: 94 nəfər insan alveri qurbanı müəyyən edilmişdir. Onlardan 89-u qadın (85-i cinsi istismar, 4-ü əmək istismarı), 3-ü kişi (hamısı əmək istismarı), 2-si isə uşaqdır (1-i kişi, 1-i qadın, hamısı əmək istismarı) olmaqla 2-si uşaq, 8-i 18-25 yaş arası, 42-si 25-35 yaş arası, 42-si isə 35 yaşdan yuxarı yaş həddində olmuşdur. 93-ü Azərbaycan Respublikası, 1-i isə Rusiya Federasiyasının vətəndaşıdır. Onlardan 85-i cinsi, 9-u isə əmək istismarına məruz qalmış, 81-i Türkiyə Respublikasında, 9-u ölkə daxilində, 4-ü isə Birləşmiş Ərəb Əmirliklərində istismara məruz qalmışlar.

2021-ci il üzrə: 95 nəfər insan alveri qurbanı müəyyən edilmişdir, Onlardan 94-ü qadın olmaqla cinsi, 1-i isə kişi olmaqla məcburi əmək istismarına məruz qalmış, 5-i 18-25 yaş arası, 59-u 25-35 yaş arası, 31-i isə 35 yaşdan yuxarı yaş həddində olmuşdur. Hamısaı Azərbaycan Respublikasının vətəndaşıdır. Onlardan 74-ü Türkiyə Respublikasında, 12-si Rusiya Federasiyasında, 7-si İran İslam Respublikasında, 1-i Birləşmiş Ərəb Əmirliklərində, 1-i isə ölkə daxilində istismara məruz qalmışlar.

- **Sığnacaq verilməsi prosesinin bir hissəsi kimi müəyyən olunan insan alveri qurbanlarının sayı (cinsi mənsubiyyəti, yaşı, milliyyəti, zorakılıq forması ayrıca göstərilməklə).**

**Cavab -** 2017-ci il üzrə: 65 nəfər insan alveri qurbanı Sığınacağa yerləşdirilmiş, onlardan 63-ü qadın, 2-si isə kişi olmuş, 9-u 18-25 yaş, 38-i 25-35 yaş, 18-i 35-55 yaş arası olmuş, 63-ü Azərbaycan Respublikası, 1-i Rusiya və 1-i Ukrayna vətəndaşı olmaqla, 63-ü cinsi, 2-sinin isə əməyi istismar olunmuşdur.

2018-ci il üzrə: 95 nəfər insan alveri qurbanı Sığınacağa yerləşdirilmiş, onlardan 79-u qadın, 16-sı isə kişi olmuş, 22-si 18-25 yaş, 50-si 25-35 yaş, 23-ü 35-55 yaş arası olmuş, hamısı Azərbaycan Respublikası vətəndaşı olmaqla, 79-u cinsi, 16-nın isə əməyi istismar olunmuşdur.

2019-cu il üzrə: 78 nəfər insan alveri qurbanı Sığınacağa yerləşdirilmiş, onlardan 72-si qadın, 6-sı isə kişi olmuş, 1-i uşaq, 10-u 18-25 yaş, 38-i 25-35 yaş, 29-i 35-55 yaş arası olmuş, 77-si Azərbaycan Respublikası, 1-i isə Tacikistan vətəndaşı olmaqla, 72-si cinsi, 6-sının isə əməyi istismar olunmuşdur.

2020-ci il üzrə: 80 nəfər insan alveri qurbanı Sığınacağa yerləşdirilmiş, onlardan 77-si qadın, 3-ü isə kişi olmuş, 7-si 18-25 yaş, 38-i 25-35 yaş, 35-i 35-55 yaş arası olmuş, 79-u

Azərbaycan Respublikası, 1-i Rusiya vətəndaşı olmaqla, 73-ü cinsi, 7-sinin isə əməyi istismar olunmuşdur.

2021-ci il üzrə: 73 nəfər insan alveri qurbanı Sığınacağa yerləşdirilmiş, onlardan 72-si qadın, 1-i isə kişi olmuş, 2-i 18-25 yaş, 49-u 25-35 yaş, 22-si 35-55 yaş arası olmuş, hamısı Azərbaycan Respublikası vətəndaşı olmaqla, 72-si cinsi, 1-inin isə əməyi istismar olunmuşdur.

- **Yardımdan yararlanan insan alveri qurbanlarının sayı (cinsi mənsubiyyəti, yaşı, milliyyəti, zorakılıq forması, daxili və ya transmilli insan alverinun qurbanı olması ayrıca göstərilməklə).**

**Cavab -** 2017-2021-ci illər ərzində müəyyən edilmiş insan alveri qurbanlarının hər birinə tibbi, sosial, psixoloji, hüquqi və digər yardımlar göstərilmiş, zəruri geyimlə təmin olunmuşlar.

- **Hüquqi qəyyum təyin olunmuş azyaşlı insan alveri qurbanlarının sayı.**

**Cavab -** 2017-2021-ci illər ərzində ərzində 3 uşaq qurban müəyyən edilmiş, onlardan ikisinə qanuni nümayəndə, 1-nə isə hüquqi qəyyyum təyin olunmuşdur.

- **Bərpa və reabilitasiya müddəti verilmiş insan alveri qurbanlarının sayı (cinsi mənsubiyyəti, yaşı, milliyyəti, zorakılıq forması ayrıca göstərilməklə).**

**Cavab -** 2017-2021-ci illər üzrə insan alveri cinayətindən zərər çəkən və ya zərər çəkməsi ehtiaml edilən 165 nəfərə bərpa və fikirləşmə müddəti verilmiş, hamısı qadın olmaqla, azərbaycanlı, cinsi istismara məruz qalması ehtimal edilmişdir.

- **Yaşayış icazəsi verilmiş insan alveri qurbanlarının sayı (cinsi mənsubiyyəti, yaşı, milliyyəti, zorakılıq forması, eləcə də yaşayış icazəsinin növü və müddəti ayrıca göstərilməklə).**

**Cavab -** 2017-2021-ci illərdə 3 əcnəbi şəxsə ölkədə müvəqqəti yaşama icazəsi verilmişdir *(Ukrayna - 63 yaşında 1 kişi, 2014-cü ilin əmək istismarı qurbanı, Rusiya - 50 yaşında 1 kişi, 2014-cü ilin əmək istismarı qurbanı, Rusiya - 47 yaşında 1 qadın, 2020-ci ilin əmək istismarı qurbanı).*

- **İnsan alverinin qurbanı olması əsasında qaçqın status verilmiş, yaxud əlavə mühafizə ilə təmin olunmuş şəxslərin sayı (cinsi mənsubiyyəti, yaşı, milliyyəti, zorakılıq forması ayrıca göstərilməklə).**

**Cavab -** 2017-2021-ci illərdə müəyyən edilmiş insan alveri qurbanları arasında qaçqın statusu verilmiş şəxs olmamışdır.

- **Kompensasiya almaq üçün müraciət edən, kompensasiya ödənilən və kompensasiyanı effektiv şəkildə qəbul etmiş insan alveri qurbanlarının sayı (cinsi mənsubiyyəti, yaşı, milliyyəti, zorakılıq forması, eləcə də kompensasiyanın cani və ya dövlət tərəfindən ödənilməsi və kompensasiyanın məbləği göstərilməklə).**

**Cavab -** 2017-2018-ci illər üzrə 166 insan alveri qurbanının hər birinə Nazirlər Kabinetinin müvafiq qərarına əsasən 400 manat məbləğində, 2018-2021-ci illər üzrə 277 insan alveri qurbanının hər birinə Nazirlər Kabinetinin müvafiq qərarına əsasən 700 manat məbləğində birdəfəlik müavinət ödənilmişdir.

Kompensasiya ilə bağlı məhkəmələrdə mülki iddia qaldıran olmamışdır.

- **Dövlətdən başqa növ maliyyə yardımı almış insan alveri qurbanlarının sayı (yardımın məbləği göstərilməklə).**

**Cavab -** 2017-2021-ci illər üzrə Kömək Fondu tərəfindən 412 nəfər insan alveri qurbanının hər birinə 50 manat miqdarında maddi yardım göstərilmişdir.

- **Pulsuz hüququ yardımdan yararlanan insan alveri qurbanlarının sayı.**

**Cavab -** 2017-2021-ci illər üzrə 168 insan alveri qurbanına istintaq müddətində, 255-nə isə məhkəmə baxışında pulsuz hüquqi yardım göstərilmişdir.

- **Sizin ölkənizdən çıxarılan və ya Sizin ölkənizə qaytarılan insan alveri qurbanlarının sayı (cinsi mənsubiyyəti, yaşı, milliyyəti, zorakılıq forması ayrıca göstərilməklə).**

**Cavab -** 2017-ci ildə insan alveri qurbanı olan 3 əcnəbi *(2015-ci ildə cinsi istismara məruz qalan 1987-ci il təvəllüdlü Özbəkistanlı 1 qadın, 2014-cü ildə əmək istismarına məruz qalmış 1951-ci il təvəllüdlü Ukraynalı 1 kişi, 2015-ci ildə əmək istismarına məruz qalmış 1970-ci il təvəllüdlü Ukraynalı 1 kişi)* öz ölkəsinə repatriasiya edilmişdir.

2018-ci ildə insan alverinin qurbanı olan 4 əcnəbi *(2013-cü ildə cinsi istsimara məruz qalan 1986 və 1993-cü il təvəllüdlü Özbəkistanlı 2 qadın, 2016-cı ildə əmək istismarına məruz qalmış 1952-ci il təvəllüdlü Ukraynalı 1 kişi, 2017-ci ildə əmək istismarına məruz qalmış 1964-cü il təvəllüdlü Rusiyalı 1 kişi)* öz ölkəsinə repatriasiya edilmişdir.

2019-cu ildə insan alverinin qurbanı olan 1 əcnəbi *(2019-cu ildə cinsi istismara məruz qalan 1985-ci il təvəllüdlü Tacikistanlı 1 qadın)* öz ölkəsinə repatriasiya edilmişdir.

2020-ci ildə insan alverinin qurbanı olan 1 əcnəbi *(2017-ci ildə əmək istismarına məruz qalan 1965-ci il təvəllüdlü Rusiyalı 1 qadın)* öz ölkəsinə repatriasiya olunmuşdur.

2021-ci ildə insan alverinin qurbanı olan 1 əcnəbi *(2014-cü ildə əmək istismarına məruz qalmış 1964-cü il təvəllüdlü Rusiyalı 1 kişi)* öz ölkəsinə repatriasiya edilmişdir.

Xarici ölkələrdən bizim ölkəmizə repatriasiya olunan olmamışdır.

- **İnsan alveri hallarının təhqiqiqatının sayı (zorakılıq forması və qurbanların sayı ayrıca göstərilməklə).**

**Cavab -** 2017-ci il üzrə: 142 insan alveri (25 c/i), 6 məcburi əmək (4 c/i) və 26 insan alveri məqsədilə sənədlərlə qanunsuz hərəkətlər cinayət faktları müəyyən edilmiş, 71 insan alveri qurbanı müəyyən edilmişdir.

2018-ci il üzrə: 144 insan alveri (26 c/i), 4 məcburi əmək (2 c/i) və 35 insan alveri məqsədilə sənədlərlə qanunsuz hərəkətlər cinayət faktları müəyyən edilmiş, 98 insan alveri qurbanı müəyyən edilmişdir.

2019-cu il üzrə: 146 insan alveri (23 c/i), 4 məcburi əmək (2 c/i) və 36 insan alveri məqsədilə sənədlərlə qanunsuz hərəkətlər cinayət faktları müəyyən edilmiş, 91 insan alveri qurbanı müəyyən edilmişdir.

2020-ci il üzrə: 155 insan alveri (16 c/i), 5 məcburi əmək (2 c/i) və 40 insan alveri məqsədilə sənədlərlə qanunsuz hərəkətlər cinayət faktları müəyyən edilmiş, 94 insan alveri qurbanı müəyyən edilmişdir.

2021-ci il üzrə: 156 insan alveri (13 c/i), 3 məcburi əmək (1 c/i) və 43 insan alveri məqsədilə sənədlərlə qanunsuz hərəkətlər cinayət faktları müəyyən edilmiş, 96 insan alveri qurbanı müəyyən edilmişdir.

- **İnsan alveri hallarında dövlət ittihamlarının sayı (zorakılıq forması, eləcə də qurbanların və cavabdeh şəxlərin sayı ayrıca göstərilməklə).**

**Cavab -** 2017-ci il üzrə: 27 hökmlə 31 insan alverçisi azadlıqdan məhrum edilmiş, onlardan 1-i məcburi əməklə bağlı olmuş, zərərçəkmiş qismində 63 nəfər qurban olmuşdur.

2018-ci il üzrə: 20 hökmlə 23 insan alverçisi azadlıqdan məhrum edilmiş, onlardan 1-i məcburi əməklə bağlı olmuş, zərərçəkmiş qismində 46 nəfər qurban olmuşdur.

2019-cu il üzrə: 36 hökmlə 42 insan alverçisi azadlıqdan məhrum edilmiş, onlardan 2-si məcburi əməklə bağlı olmuş, zərərçəkmiş qismində 120 nəfər qurban olmuşdur.

2020-ci il üzrə: 14 hökmlə 15 insan alverçisi azadlıqdan məhrum edilmiş, onlardan 1-i məcburi əməklə bağlı olmuş, zərərçəkmiş qismində 43 nəfər qurban olmuşdur.

2021-ci il üzrə: 13 hökmlə 13 insan alverçisi azadlıqdan məhrum edilmiş, onlardan 1-i məcburi əməklə bağlı olmuş, zərərçəkmiş qismində 38 nəfər qurban olmuşdur.

- **İnsan alverində ittiham olunan canilərin sayı (cinsi mənsubiyyəti, yaşı, milliyyəti, zorakılıq forması ayrıca göstərilməklə).**

**Cavab -** 2017-ci ildə 33 təqsirli *(25 qadın 8 kişi)* müəyyən edilmiş, onlardan 30-u cinsi istismar, 3-ü əmək istismarı formasında insan alveri cinayəti törətmiş, 3-ü 18-25, 8-i 25-35, 22-si 35-dən yuxarı yaş həddində olmuşlar. Təqsirləndirilənlər arasında əcnəbi olmamışdır.

2018-ci ildə 34 təqsirli *(29 qadın 5 kişi)* müəyyən edilmiş, onlardan 33-ü cinsi istismar, 1-i əmək istismarı formasında insan alveri cinayəti törətmiş, 1-i 18-25, 6-sı 25-35, 27-si 35-dən yuxarı yaş həddində olmuşlar.

2019-cu ildə 30 təqsirli *(22 qadın 6 kişi)* müəyyən edilmiş, onlardan 25-i cinsi istismar, 2-si əmək istismarı formasında insan alveri cinayəti törətmiş, 7-si 25-35, 23-ü 35-dən yuxarı yaş həddində olmuşlar. Türkiyə Respublikası vətəndaşı olan 52 və 33 yaşlarında 2 əcnəbi şəxs təqsirləndirilən şəxs olmuşdur.

2020-ci ildə 21 təqsirli *(17 qadın, 4 kişi)* müəyyən edilmiş, onlardan 18-i cinsi istismar, 3-ü əmək istismarı formasında insan alveri cinayəti törətmiş, 6-sı 25-35, 15-i 35-dən yuxarı yaş həddində olmuşlar. Təqsirləndirilənlər arasında əcnəbi olmamışdır.

2021-ci ildə 13 təqsirli *(12 qadın, 1 kişi)* müəyyən edilmiş, onlardan 12-i cinsi istismar, 1-i əmək istismarı formasında insan alveri cinayəti törətmiş, 2-si 35, 11-i 35-dən yuxarı yaş həddində olmuşlar. Təqsirləndirilənlər arasında əcnəbi olmamışdır.

- **Zorakılıq forması, qurbanın yaşlı və ya azyaşlı olması, cəza müddəti, eləcə də işin effektiv surətdə qüvvəyə minməsi və ya xitam verilməsi göstərilməklə, insan alveri üzrə ittihamların sayı.**

**Cavab -** Bax: III hissənin 14-cü bəndinin 13 və 14-cü abzasına.

- **Əmlakın müsadirə olunması ilə nəticələnən insan alveri üzrə qətnamələrin sayı.**

**Cavab -**Olmayıb.

- **İnsan alveri üzrə hüquqi şəxslərin ittihamlarının sayı.**

**Cavab -** Olmayıb.